RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 236 (9115) CÜMƏ, 28 oktyabr 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# Azərbaycanı dünyaya tanıdan əməkdaşlıq platforması




## 10 il əvvəl yaradılan Nizami Gəncəvi Beynəlxalq Mərkəzi öz fəaliyyəti ilə ölkəmizin beynəlxalq uğurlarının artmasına layiqli töhfələr verir

**Artıq xeyli vaxtdır ki, Bakı dünyada mühüm beynəlxalq tədbirlərin keçirildiyi ünvan kimi tanınır. Bu tədbirlərin paytaxtımızda keçirilməsini şərtləndirən əsas səbəblərdən biri Azərbaycanın yürütdüyü nümunəvi siyasət, dünyada sülhün bərqərar olunması istiqamətində irəli sürdüyü səmərəli təşəbbüslər və təkliflərdir. Respublikamızın mədəniyyətlər və sivilizasiyalararası dialoqa verdiyi töhfələr də beynəlxalq ictimaiyyət tərəfindən təqdirlə qarşılanır.**

### Azərbaycanın yüksək beynəlxalq nüfuzunun ifadəsi olan forum

Bakı Beynəlxalq Humanitar Forumu, Mədəniyyətlərarası Dialoq Forumu və digər tədbirlər məhz Azərbaycanda keçirilir. Azərbaycanın təşəbbüsü ilə yaranan Bakı Prosesi qlobal hərəkata çevrilib və BMT tərəfindən dəstəklənir.

Bakının evsahibliyi etdiyi və dünyanın tanınmış siyasi və dövlət xadimlərinin iştirakı ilə keçirilən tədbirlərdən biri də Qlobal Bakı Forumudur. Bu forum dövrümüzün aktual məsələlərinin, dünyada baş verən mühüm hadisələr və cərəyan edən proseslərin müzakirə olunduğu mühüm platformadır. İndiyə qədər Bakıda müxtəlif mövzulara həsr olunmuş 9 forum keçirilib. Prezident İlham Əliyevin himayəsi altında keçirilən forumlarda hər zaman onlarca ölkənin, eləcə də nüfuzlu beynəlxalq təşkilatların nümayəndələri iştirak ediblər.

Bu forumun ölkəmizdə keçirilməsi beynəlxalq siyasi ictimaiyyətin respublikamıza olan dərin etimadının, Azərbaycanın beynəlxalq siyasi münasibətlər sistemindəki roluna, habelə siyasi və humanitar dialoqun inkişafı istiqamətində irəli sürdüyü təşəbbüslərə və real töhfələrinə verilən yüksək qiymətin təcəssümüdür. Nəticə etibarilə Azərbaycanın belə bir beynəlxalq tədbirə evsahibliyi etməsi həm də respublikamızın beynəlxalq miqyasdakı artan nüfuzunun real ifadəsidir.

Qlobal Bakı Forumu qlobal problemləri müzakirə etməyə, onların həlli yollarını tapmaq üçün səyləri birləşdirməyə şərait yaradır. Bu baxımdan forumun dövlətlərarası əməkdaşlığa, siyasi münasibətlərə konstruktiv töhfə verdiyi, qarşılıqlı siyasi anlaşma üçün əlverişli şərait yaratdığı beynəlxalq miqyasda təqdir edilir.

→ 4

## Azərbaycanın BMT-nin ixtisaslaşmış təşkilatlarına verdiyi könüllü humanitar və maliyyə yardımı nümunəvi hal kimi qiymətləndirildi



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 27-də BMT Baş katibinin müavini və BMT-nin Cenevrədəki bölməsinin baş direktoru Tatyana Valovayanı qəbul edib. AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycanın BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinin icrası ilə əlaqədar 2030-cu ilə qədər qarşıya qoyulmuş hədəflərə nail olacağına əminlik ifadə edildi və bu istiqamətdə əldə olunan nailiyyətlər xüsusi vurğulandı. Ölkəmizin BMT-nin Cenevrə bölməsi yanındakı strukturları və ixtisaslaşmış təşkilatları ilə əməkdaşlığı qeyd olundu. Bundan əlavə, Azərbaycanın BMT-nin ixtisaslaşmış təşkilatlarına verdiyi könüllü maliyyə töhfələri, həmçinin donor təşəbbüslərini dəstəkləməsi məsələləri vurğulandı.

→ 2

## Azərbaycan, Rusiya və Ermənistanın üçtərəfli işçi qrupunun fəaliyyəti üzrə məsələlər müzakirə olundu



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 27-də Rusiya Federasiyasının Baş nazirinin müavini Aleksey Overçuku qəbul edib.

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan və Rusiya prezidentləri arasında əldə olunmuş razılaşmalar əsasında münasibətlərimizin dinamik inkişafından və ölkələrimiz arasında müxtəlif sahələrdə, o cümlədən iqtisadi-ticari, nəqliyyat-tranzit, energetika sahələrində əməkdaşlığın mövcud vəziyyətindən məmnunluq ifadə edildi, bütün istiqamətlər üzrə irəliləyişin olduğu və ticarət dövriyyəsinin artdığı vurğulandı. "Şimal-Cənub" nəqliyyat dəhlizi ilə bağlı fikir mübadiləsi aparıldı.

Söhbət zamanı 10 noyabr Bəyanatının icrası ilə bağlı bölgədə nəqliyyat və iqtisadi əlaqələrin bərpası məqsədilə yaradılmış Azərbaycan, Rusiya və Ermənistanın üçtərəfli işçi qrupunun fəaliyyəti üzrə məsələlər müzakirə olundu.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparıldı.

## Zəngəzur dəhlizi qlobal nəqliyyat-logistik layihəyə çevriləcək

### İlham Əliyevin bu təşəbbüsü Orta dəhlizin tezliklə reallaşmasına mühüm töhfə verəcək

Cənubi Qafqazın aparıcı ölkəsi, Şərqlə Qərbin arasında körpü rolunu oynayan Azərbaycan geosiyasi mövqeyindən maksimum yararlanaraq, regionlararası nəqliyyat-kommunikasiya əlaqələrinin yaradılmasında hər zaman fəal iştirak edir və yeni-yeni qlobal təşəbbüslər irəli sürür. İkinci Qarabağ müharibəsindəki Zəfərimizdən sonra Cənubi Qafqazda yaranan yeni reallıqları dəyərləndirən qalib ölkə bu prosesə daha iki töhfə vermək üçün ciddi işlər görür.

Bunlar - bu ilin martın 11-də İranla imzalanan anlaşma memorandumuna əsasən yaradılacaq Şərqi Zəngəzur-Naxçıvan-İran dəhlizi və Vətən müharibəsindəki Zəfərdən sonra açılması qətiləşən tarixi Zəngəzur dəhlizidir. Azərbaycan hər iki dəhlizin tezliklə reallaşmasında olduqca maraqlıdır. Bu dəhlizlərin yaradılması ilə Azərbaycanın etibarlı tranzit ölkə kimi çoxtərəfli beynəlxalq əməkdaşlığa dəyərli töhfələr verdiyi bir daha təsdiqini tapacaq. Onu da vurğulayaq ki, hazırda Azərbaycan "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizləri layihələrinin fəal iştirakçısı olaraq həm də "Cənub-Qərb" və "Şimal-Qərb" layihələri üzərində də iş aparır.

→ 5

## Ağdam Zəfər forumuna evsahibliyi edib

Zəfər forumunun növbəti ünvanı oktyabrın 27-də Ağdam rayonu olub. AZƏRTAC xəbər verir ki, Ağdam, Ağcabədi, Beyləqan, Füzuli, Bərdə, Tərtər, Zərdab, İmişli, Laçın və Xocavənd rayonlarının təmsilçilərinin iştirakı ilə keçirilən Zəfər forumu Ağdam Muğam Mərkəzində təşkil olunub. Forumda Prezident Administrasiyasının məsul əməkdaşları, Müdafiə Nazirliyinin və yerli icra hakimiyyəti orqanlarının rəsmiləri, şəhid ailələrinin üzvləri, müharibə iştirakçıları, Azərbaycan Ordusunun hərbi qulluqçuları, qeyri-hökumət təşkilatlarının, eləcə də ictimaiyyətin nümayəndələri iştirak ediblər.

→ 5

## Siyasi partiyaların fəaliyyətində hansı dəyişikliklər baş verəcək?

Milli Məclisdə siyasi partiyaların nümayəndələrinin müraciəti əsasında "Siyasi partiyalar haqqında" yeni qanun layihəsi hazırlanıb. Oktyabrın 24-də parlamentdə təmsil olunan və dövlət qeydiyyatından keçmiş bir sıra siyasi partiyaların sədrlərinin və nümayəndələrinin iştirakı ilə qanun layihəsinin ictimai dinləməsi keçirilib. Yeni qanun layihəsi ölkəmizdə siyasi müstəvidə həyata keçirilən islahatların mühüm tərkib hissəsidir.

→ 4

## Aİ ölkələrinin nümayəndələri Ermənistanın sülh prosesinə xələl gətirən təxribatları barədə məlumatlandırılıb



→ 3

## Azərbaycan ən çətin vaxtlarda İranı müdafiə edib

### Lakin bu ölkədəki antiazərbaycançı dairələrin tutduğu mövqe münasibətlərə xələl gətirir

Azərbaycan hər zaman xarici siyasətində dostluq, əməkdaşlıq münasibətlərinə xüsusi önəm verir. Qonşu ölkələrlə əlaqələrinə üstünlük verən dövlətimiz İranla da hər zaman normal, səmimi münasibətlərin qorunub saxlanılmasına çalışıb. Bununla belə, İranın bəzi antiazərbaycançı dairələri Azərbaycana qeyri-səmimi münasibət, qonşuluğa sığmayan hərəkətlər nümayiş etdirirlər. Torpaqlarımız işğaldan azad edildikdən sonra həmin ərazilərdə görülən sürətli bərpa-quruculuq işləri də bu qüvvələri narahat edir.

Bu baxımdan Azərbaycana mesaj vermək məqsədi güdən və 30 ildə Ermənistan hərbi birləşmələrinin yerləşdiyi ərazilərlə sərhəddə heç bir təlim keçirməyən İran son iki ildə fəallaşıb. Bu ölkədəki bəzi dairələrin əsas narahatlığı isə Azərbaycanın Zəngəzur dəhlizini reallaşdıracağı ilə bağlıdır. Onlar, əslində, bu layihənin regionda sülhə, əmin-amanlığa, təhlükəsizliyə, ölkələrin əlaqələrinin möhkəmlənməsinə və bölgədə yerləşən dövlətlərin faydalanmasına xidmət edəcəyini anlamaq istəmirlər.

→ 4

# Azərbaycanın BMT-nin ixtisaslaşmış təşkilatlarına verdiyi könüllü humanitar və maliyyə yardımı nümunəvi hal kimi qiymətləndirildi

*Əvvəli 1-ci səh.*

COVID-19-a qarşı mübarizə tədbirləri çərçivəsində Qoşulmama Hərəkatının sədri kimi Azərbaycanın Ümumdünya Səhiyyə Təşkilatının xətti ilə hərəkatın 80-dən çox üzv ölkəsinə göstərdiyi humanitar və maliyyə yardımı nümunəvi hal kimi qiymətləndirildi. Tatyana Valovaya BMT-nin Cenevrədəki bölməsinin rəhbərinin və Heydər Əliyev Fondunun birgə təşəbbüsü ilə Heydər Əliyev Mərkəzində keçirilən Azərbaycan qadınlarına həsr olunmuş fotosərginin əhəmiyyətinə toxundu. Bildirildi ki, sərgi Dayanıqlı İnkişaf Məqsədlərinə töhfə vermiş Azərbaycan qadınlarını təşviq edir və ilk olaraq Bakıda təşkil edilən bu tədbir mütəmadi şəkildə digər ölkələrdə də keçiriləcək.

# "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Dövlət rüsumu haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 12, maddə 740; 2002, № 12, maddə 706; 2003, № 1, maddə 23, № 8, maddə 428, № 12 (I kitab), maddələr 676, 698; 2005, № 1, maddə 1, № 6, maddə 462, № 8, maddə 684, № 10, maddələr 873, 905, № 12, maddə 1083; 2006, № 3, maddələr 223, 225, № 6, maddə 481, № 12, maddələr 1015, 1029; 2007, № 2, maddə 80, № 12, maddə 1203; 2008, № 3, maddə 158, № 6, maddə 462, № 7, maddə 602, № 12, maddə 1047; 2009, № 1, maddə 5, № 2, maddə 56, № 3, maddə 160, № 7, maddə 519, № 12, maddə 947; 2010, № 4, maddə 276, № 6, maddə 485, № 10, maddə 840, № 11, maddə 939; 2011, № 1, maddə 12, № 4, maddələr 245, 264, № 11, maddə 985, № 12, maddə 1100; 2012, № 1, maddə 4, № 6, maddələr 508, 518, № 7, maddə 646, № 10, maddə 947, № 12, maddələr 1216, 1227, 1229; 2013, № 3, maddə 213, № 5, maddə 474, № 11, maddələr 1269, 1279, 1299, 1301, 1308, № 12, maddələr 1485, 1504; 2014, № 1, maddə 6, № 5, maddə 468, № 6, maddələr 603, 605, № 7, maddələr 774, 780, № 11, maddələr 1345, 1370; 2015, № 12, maddə 1432; 2016, № 1, maddələr 15, 36, № 4, maddə 630, № 5, maddə 849, № 6, maddə 1014, № 10, maddə 1605, № 11, maddələr 1753, 1776, 1780, 1790, № 12, maddələr 2006, 2051; 2017, № 3, maddələr 337, 341, № 5, maddə 742, № 6, maddə 1028, № 7, maddə 1308, № 8, maddə 1506, № 12 (I kitab), maddə 2265; 2018, № 3, maddə 405, № 4, maddələr 639, 647, № 6, maddələr 1186, 1194, № 7 (I kitab), maddələr 1415, 1444, № 8, maddə 1675, № 12 (I kitab), maddə 2489; 2019, № 1, maddə 45, № 4, maddələr 571, 596, № 5, maddə 797, № 7, maddələr 1176, 1181, 1190, 1192, № 8, maddələr 1360, 1363, 1371, № 11, maddələr 1681, 1694; 2020, № 5, maddələr 521, 524, № 6, maddə 665, № 7, maddələr 824, 828, 837, 851, 853, № 11, maddə 1327, № 12 (I kitab), maddə 1423; 2021, № 2, maddə 117, № 6 (I kitab), maddə 554, № 7, maddələr 711, 714, 718, № 8, maddə 898, № 10, maddə 1094, № 11, maddə 1207, № 12, maddə 1314; 2022, № 5, maddə 427; Azərbaycan Respublikasının 2022-ci il 8 iyul tarixli 582-VIQD nömrəli Qanunu) 23.2-ci maddəsində "televiziya yayımı və regional radio yayımı" sözləri "yerüstü televiziya yayımçısı və regional yerüstü radio yayımçısı" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 11 oktyabr 2022-ci il*

# Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 13 yanvar tarixli 724 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti haqqında Əsasnamə"də, "Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin strukturu"nda və "Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətində ali hərbi rütbəli vəzifələrin siyahısı"nda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 13 yanvar tarixli 724 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 1, maddə 46; 2018, № 7 (I kitab), maddə 1492; 2019, № 3, maddə 414, № 7, maddə 1247, № 10, maddələr 1580, 1592; 2020, № 2, maddə 109, № 5, maddə 556, № 6, maddə 700; 2021, № 3, maddə 229; 2022, № 1, maddə 24, № 3, maddə 223) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti haqqında Əsasnamə"də, "Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin strukturu"nda və "Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətində ali hərbi rütbəli vəzifələrin siyahısı"nda dəyişikliklər təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 oktyabr 2022-ci il*

# Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası vətəndaşlarının biometrik pasportlarının hazırlanması ilə bağlı bəzi tədbirlər haqqında" 2010-cu il 12 mart tarixli 794 nömrəli, "Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2013-cü il 19 aprel tarixli 617-IVQD nömrəli Qanununda dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2013-cü il 27 dekabr tarixli 861-IVQD nömrəli Qanununun tətbiqi barədə" 2014-cü il 16 yanvar tarixli 228 nömrəli və "Azərbaycan Respublikasında yeni nəsil şəxsiyyət vəsiqəsinin tətbiqi ilə bağlı əlavə tədbirlər haqqında" 2014-cü il 28 noyabr tarixli 893 nömrəli sərəncamlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Azərbaycan Respublikası vətəndaşlarının biometrik pasportlarının hazırlanması ilə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 12 mart tarixli 794 nömrəli Sərəncamında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 3, maddə 222; 2014, № 5, maddə 477; 2016, № 8, maddə 1384) aşağıdakı dəyişikliklər edilsin:

1.1. aşağıdakı məzmunda 1-1-ci hissə əlavə edilsin:

"1-1. Bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulan müqavilədən irəli gələn məsələlərin həll edilməsi Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinə həvalə olunsun.";

1.2. 4-cü hissədə "İqtisadiyyat" sözü "Xarici İşlər" sözləri ilə əvəz edilsin.

2. "Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2013-cü il 19 aprel tarixli 617-IVQD nömrəli Qanununda dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2013-cü il 27 dekabr tarixli 861-IVQD nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 16 yanvar tarixli 228 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 1, maddə 41; 2016, № 8, maddə 1384) 3-cü hissəsi ləğv edilsin.

3. "Azərbaycan Respublikasında yeni nəsil şəxsiyyət vəsiqəsinin tətbiqi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 28 noyabr tarixli 893 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 11, maddə 1495; 2015, № 10, maddə 1192; 2016, № 8, maddə 1384; 2017, № 4, maddə 578, № 8, maddə 1521, № 12 (I kitab), maddə 2285; 2018, № 3, maddə 485, № 8, maddə 1706) 6-cı hissəsində "İqtisadiyyat Nazirliyi bu Sərəncamın 5-ci hissəsinə uyğun olaraq" sözləri "Daxili İşlər Nazirliyi" sözləri ilə əvəz edilsin.

4. Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi və Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu Sərəncamdan irəli gələn zəruri tədbirlərin görülməsini təmin etsinlər.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 oktyabr 2022-ci il*

# "Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 8 fevral tarixli 586 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 8 fevral tarixli 586 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 2, maddə 75; 2013, № 12, maddə 1542; 2014, № 5, maddə 477; 2015, № 10, maddə 1141; 2016, № 8, maddə 1384; 2017, № 12 (I kitab), maddə 2285; 2018, № 8, maddə 1706; 2021, № 12, maddə 1417) 3-cü hissəsində "İqtisadiyyat" sözü "Daxili İşlər" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi və Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu Fərmandan irəli gələn zəruri tədbirlərin görülməsini təmin etsinlər.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 oktyabr 2022-ci il*

# "Azərbaycan Respublikasında ünvan reyestrinin aparılması və daşınmaz əmlak obyektlərinə ünvan verilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 27 noyabr tarixli 27 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Azərbaycan Respublikasında ünvan reyestrinin aparılması və daşınmaz əmlak obyektlərinə ünvan verilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 27 noyabr tarixli 27 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 11, maddə 981; 2010, № 7, maddə 610, № 8, maddə 720; 2012, № 2, maddə 79; 2014, № 2, maddə 123; 2015, № 9, maddə 1002; 2016, № 6, maddə 1037; 2017, № 10, maddə 1786) aşağıdakı dəyişikliklər edilsin:

1. 4-cü hissə aşağıdakı redaksiyada verilsin:

"4. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yerli icra hakimiyyəti orqanları ilə birgə Ünvan Reyestri İnformasiya Sistemində saxlanılan məlumatlardan yerli icra hakimiyyəti orqanlarına istifadə imkanlarının yaradılmasını təmin etsinlər.".

2. Həmin Fərmanla təsdiq edilmiş "Azərbaycan Respublikasında ünvan reyestrinin aparılması və daşınmaz əmlak obyektlərinə ünvan verilməsi Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

2.1. 1.5-ci bənddə "Əmlak Məsələləri Dövlət Komitəsi (bundan sonra - Komitə)" sözləri "İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti (bundan sonra - Dövlət Xidməti)" sözləri ilə əvəz edilsin;

2.2. 3.3-cü, 3.8-ci, 4.1-ci bəndlərdə, 4.2-ci bəndin üçüncü abzasının birinci və ikinci cümlələrində ismin müvafiq hallarında "Komitə" sözü ismin müvafiq hallarında "Dövlət Xidməti" sözləri ilə əvəz edilsin;

2.3. 4.4-cü və 5.1-ci bəndlər aşağıdakı redaksiyada verilsin:

"4.4. Yeni nəqliyyat infrastrukturu obyektinin və ya adsız nəqliyyat infrastrukturu obyektinin adlandırılması barədə Dövlət Xidməti tərəfindən müraciət edildiyi hallarda, ad verən aidiyyəti yerli icra hakimiyyəti orqanı (şəhər rayonu icra hakimiyyəti orqanı istisna olmaqla) 21 (iyirmi bir) iş günü müddətində Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi qaydada nəqliyyat infrastrukturu obyektini adlandırır və 3 (üç) iş günü müddətində Dövlət Xidmətini bu barədə məlumatlandırır.";

"5.1. Dövlət vəsaiti hesabına maliyyələşdirilən tikinti obyektlərinə münasibətdə ünvan reyestrinə daxil edilmiş ünvanın rekvizitləri hesab edilən nəqliyyat infrastrukturu obyektlərinin adlarını və daşınmaz əmlak obyektlərinin nömrələrini əks etdirən lövhələr (bundan sonra - ünvan lövhələri) yerli icra hakimiyyəti orqanları tərəfindən Azərbaycan Respublikasının dövlət büdcəsinin vəsaiti hesabına hazırlanır və daşınmaz əmlak obyektlərində yerləşdirilir. Dövlət vəsaiti hesabına maliyyələşdirilən tikinti obyektləri istisna olmaqla, ünvan lövhələri tikinti obyektinin mülkiyyətçisinin (tikilməkdə olan tikinti obyektlərinə münasibətdə, həmçinin sifarişçisinin) və ya onun nümayəndəsinin müraciəti əsasında mülkiyyətçinin (sifarişçinin) vəsaiti hesabına həmin müraciətlə bağlı xidmət haqqı ödənildiyi gündən sonra 10 (on) iş günü müddətində yerli icra hakimiyyəti orqanları tərəfindən hazırlanır və daşınmaz əmlak obyektlərində yerləşdirilir.";

2.4. aşağıdakı məzmunda 5.3 - 5.5-ci bəndlər əlavə edilsin:

"5.3. Daşınmaz əmlak obyektlərində yerləşdirilmiş ünvan lövhələrinin mövcudluğunu müəyyən etmək və mövcud ünvan lövhələrinin qorunub saxlanılmasına nəzarət etmək məqsədilə yerli icra hakimiyyəti orqanları mütəmadi monitorinq keçirir, ünvan lövhələrinin məhv edilməsi və ya zədələnməsi hallarını aşkar etdikdə bu barədə aidiyyəti üzrə məlumat verirlər.

5.4. Dövlət vəsaiti hesabına maliyyələşdirilən tikinti obyektlərinə yerləşdirilmiş ünvan lövhələri dövlət mülkiyyəti hesab edilir. Ünvan lövhələrinin qəsdən məhv edilməsində və ya zədələnməsində təqsirli olan şəxslər Azərbaycan Respublikasının Mülki Məcəlləsində və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində nəzərdə tutulmuş hallarda məsuliyyət daşıyırlar.

5.5. Ünvan lövhələrinin məhv edilməsi və ya zədələnməsi ilə bağlı dəymiş zərəri onların qəsdən məhv edilməsində və ya zədələnməsində təqsirli olan şəxslər ödəyirlər.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 oktyabr 2022-ci il*

# "Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının 2021-ci il 3 dekabr tarixli 401-VIQ nömrəli Qanununun tətbiqi ilə bağlı bir sıra məsələlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 23 dekabr tarixli 1526 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının 2021-ci il 3 dekabr tarixli 401-VIQ nömrəli Qanunun tətbiqi ilə bağlı bir sıra məsələlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 23 dekabr tarixli 1526 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 12, maddə 1391; 2022, № 7, maddə 725) 1-ci hissəsindəki cədvəldə aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1.11.6.1-ci yarımbəndin "Xərclərin məbləği" və "Mərkəzləşdirilmiş xərclər" sütunlarında müvafiq olaraq "54,091,668.0" rəqəmləri müvafiq olaraq "5,810,010.0" rəqəmləri ilə əvəz edilsin;

1.2. 1.11.6.1.2-ci yarımbənddə aşağıdakı dəyişikliklər edilsin:

1.2.1. "Xərclərin istiqaməti" sütununda "Yeni nəsil şəxsiyyət vəsiqələrinin, biometrik pasportların və lisenziya" sözləri "Lisenziya" sözü ilə əvəz edilsin;

1.2.2. "Xərclərin məbləği" və "Mərkəzləşdirilmiş xərclər" sütunlarında müvafiq olaraq "48,291,668.0" rəqəmləri müvafiq olaraq "10,010.0" rəqəmləri ilə əvəz edilsin;

1.3. aşağıdakı məzmunda 1.11.6.1-1-ci yarımbənd əlavə edilsin:

| | | | |
|---|---|---|---|
| 1.11. 6.1-1 | Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi (yeni nəsil şəxsiyyət vəsiqələrinin və biometrik pasportların çap edilməsi) | 48, 281, 658.0 | 48, 281, 658.0 |

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 oktyabr 2022-ci il*

# Daşınmaz əmlak obyektlərinə ünvan verilməsi ilə bağlı əlavə tədbirlər və Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 6 iyun tarixli 648 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Yerli icra hakimiyyəti orqanları nəqliyyat infrastrukturu obyektlərinin adlarını və daşınmaz əmlak obyektlərinin nömrələrini əks etdirən lövhələrin Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 27 noyabr tarixli 27 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında ünvan reyestrinin aparılması və daşınmaz əmlak obyektlərinə ünvan verilməsi Qaydaları"na uyğun olaraq hazırlanması və yerləşdirilməsi ilə bağlı zəruri tədbirlər görsünlər.

2. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi bu Fərmandan irəli gələn məsələləri həll etsin.

3. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 6 iyun tarixli 648 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 6, maddə 542; 2013, № 1, maddə 29, № 2, maddə 117, № 3, maddə 246, № 8, maddə 909, № 10, maddə 1155, № 12, maddə 1514; 2014, № 5, maddələr 477, 487, № 9, maddə 1027, № 12, maddə 1577; 2015, № 3, maddə 271, № 9, maddə 1005, № 11, maddə 1322, № 12, maddə 1448; 2016, № 2 (II kitab), maddə 273, № 5, maddələr 859, 864, № 8, maddə 1384, № 9, maddə 1464, № 10, maddə 1647, № 11, maddə 1835; 2017, № 3, maddə 353, № 4, maddə 545, № 5, maddə 807, № 8, maddə 1521, № 10, maddə 1797; 2018, № 2, maddələr 191, 215, № 3, maddə 427, № 4, maddə 659, № 7 (I kitab), maddə 1462, № 10, maddə 2017, № 12 (I kitab), maddələr 2538, 2596; 2019, № 3, maddə 406, № 4, maddə 655, № 5, maddələr 820, 826, 848, 852, 857, № 6, maddə 1037, № 12, maddə 1936; 2020, № 1, maddə 7, № 8, maddə 1039, № 10, maddə 1247; 2021, № 1, maddələr 16, 36, № 6 (I kitab), maddə 567, № 8 maddə 919, № 11, maddə 1211, № 12, maddə 1367; 2022, № 1, maddə 29, № 4, maddələr 302, 323, № 5, maddə 475, № 6, maddə 594; Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 18 avqust tarixli 1814 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"nin 4.11.17-ci yarımbəndi aşağıdakı redaksiyada verilsin:

"4.11.17. yaşayış məntəqələrində küçə və meydanlara ad vermək, onların adlarını dəyişdirmək, ünvan reyestrinə daxil edilmiş ünvan rekvizitləri hesab olunan nəqliyyat infrastrukturu obyektlərinin adlarını və daşınmaz əmlak obyektlərinin nömrələrini əks etdirən ünvan lövhələrini Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 27 noyabr tarixli 27 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında ünvan reyestrinin aparılması və daşınmaz əmlak obyektlərinə ünvan verilməsi Qaydaları"na uyğun olaraq hazırlamaq və yerləşdirmək, mövcud ünvan lövhələrinin qorunub saxlanılmasına nəzarət etmək və daşınmaz əmlak obyektlərində yerləşdirilmiş ünvan lövhələrinin mövcudluğunu müəyyənləşdirmək məqsədilə mütəmadi monitorinq keçirmək, ünvan lövhələrinin məhv edilməsi və ya zədələnməsi hallarını aşkar etdikdə, bu barədə aidiyyəti üzrə məlumat vermək.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 oktyabr 2022-ci il*

# Azərbaycan Respublikası Prezidentinin "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında" Azərbaycan Respublikası Qanununun icrasının təmin edilməsi barədə" 2007-ci il 22 may tarixli 578 nömrəli, "İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın təsdiq edilməsi barədə" 2017-ci il 23 fevral tarixli 1256 nömrəli və "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın təsdiq edilməsi barədə" 2017-ci il 3 may tarixli 1361 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında" Azərbaycan Respublikası Qanununun icrasının təmin edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 22 may tarixli 578 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 5, maddə 460; 2017, № 3, maddə 353) 1.4-cü və 1.5-ci bəndlərindən "(Naxçıvan Muxtar Respublikasının ərazisində Naxçıvan Muxtar Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti)" sözləri çıxarılsın.

2. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 23 fevral tarixli 1256 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 2, maddə 200, № 6, maddə 1105, № 9, maddə 1638, № 11, maddə 1984; 2018, № 2, maddə 199, № 3, maddələr 415, 419, 429, № 5, maddələr 915, 927, № 7 (I kitab), maddə 1481, № 8, maddə 1698, № 11, maddələr 2242, 2289, № 12 (I kitab), maddələr 2566, 2597; 2019, № 1, maddə 82, № 2, maddə 213, № 3, maddə 426, № 4, maddələr 620, 630, 649, № 5, maddələr 819, 862; 2020, № 3, maddələr 238, 240, № 4, maddə 404, № 7, maddələr 864, 885, № 8, maddə 1041, № 9, maddə 1153; 2021, № 6 (I kitab), maddə 566, № 7, maddələr 724, 728, № 12, maddələr 1407, 1423; 2022, № 4, maddələr 313, 323, Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 29 avqust tarixli 1836 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın 10.0-cı bəndindən ", Naxçıvan Muxtar Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi və onun müavini" sözləri çıxarılsın.

3. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 5, maddə 765, № 9, maddə 1650, № 10, maddə 1789, № 12 (I kitab), maddələr 2314, 2321; 2018, № 1, maddə 54, № 2, maddələr 200, 219, № 3, maddələr 416, 430, 448, № 5, maddələr 916, 919, № 6, maddə 1243, № 9, maddələr 1828, 1840, № 11, maddələr 2274, 2289, № 12 (I kitab), maddələr 2540, 2587, 2601; 2019, № 1, maddə 82, № 2, maddə 216, № 3, maddə 431, № 4, maddə 620, № 5, maddələr 819, 824, 835, 866, № 7, maddə 1221, № 8, maddə 1388, № 10, maddələr 1581, 1587, № 11, maddələr 1700, 1710; 2020, № 3, maddə 252, № 5, maddələr 538, 564, № 6, maddələr 710, 714, № 7, maddələr 865, 880, № 8, maddə 1032, № 11, maddə 1345, № 12 (I kitab), maddə 1484; 2021, № 1, maddə 33, № 6 (I kitab), maddə 566, № 8, maddə 921, № 12, maddələr 1407, 1423; 2022, № 4, maddələr 305, 306, 323, 329, № 7, maddə 728) ilə təsdiq edilmiş "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın 28-ci hissəsindən və 55-2.5-ci bəndindən", Naxçıvan Muxtar Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi, onun müavini" sözləri çıxarılsın.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 oktyabr 2022-ci il*

# Baş nazir Əli Əsədovun Qazaxıstana işgüzar səfəri başlayıb



Oktyabrın 27-də Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Qazaxıstan Respublikasının Baş naziri Alixan Smailovun dəvəti ilə MDB Hökumət Başçıları Şurasının iclasında iştirak etmək üçün Astanaya işgüzar səfər edib.

# Azərbaycan ərazisində xüsusi karantin rejiminin müddəti uzadılıb

Koronavirus (COVID-19) infeksiyasının ölkə ərazisində yayılmasının, onun törədə biləcəyi fəsadların qarşısının alınması məqsədilə Azərbaycan Respublikasının ərazisində xüsusi karantin rejiminin müddəti 2023-cü il yanvarın 1-i saat 06:00-dək uzadılıb.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov bununla bağlı qərar imzalayıb.

# Milli Məclisin Sədri Sahibə Qafarova MDB PA-nın Şura iclasında iştirak edib

Oktyabrın 27-də Özbəkistanın Səmərqənd şəhərində Müstəqil Dövlətlər Birliyinə üzv olan dövlətlərin Parlamentlərarası Assambleyası Şurasının iclası keçirilib. Milli Məclisin Sədri Sahibə Qafarova iclasda iştirak edib.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə tədbirdə ötən dövr ərzində Assambleya çərçivəsində görülmüş işlər, həyata keçirilmiş tədbirlər, həmçinin təşkilatın gələcək fəaliyyət planı müzakirə olunmuş və digər təşkilati məsələlər nəzərdən keçirilmişdir. Azərbaycan parlamentinin spikeri müzakirə olunan mövzular haqqında öz fikirlərini bildirib.

***"Azərbaycan"***




# Moskvada MDB ölkələrinin xüsusi xidmət orqanları rəhbərlərinin iclası keçirilib

Oktyabrın 26-da Rusiya Federasiyasının paytaxtı Moskva şəhərində MDB-yə üzv ölkələrin təhlükəsizlik və xüsusi xidmət orqanları rəhbərləri Şurasının 51-ci iclası keçirilib.




Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, tədbirdə Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi general-polkovnik Əli Nağıyevin və Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidmətinin rəisi general-polkovnik Orxan Sultanovun başçılıq etdikləri nümayəndə heyətləri iştirak ediblər.

İclasda MDB dövlətlərinin təhlükəsizliyinə mümkün təhdidlər, bəzi terror təşkilatlarının yenidən fəallaşmasının region ölkələrində hökm sürən sabitliyə təsirləri, həmçinin informasiya təhlükəsizliyi, kibercinayətkarlıq, beynəlxalq terrorçuluq, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi, silah qaçaqmalçılığı, eləcə də destruktiv qüvvələrin MDB ölkələrinə nüfuzetmə cəhdləri və kəşfiyyat-pozuculuq fəaliyyəti, bölgədə olan müharibə və münaqişə ocaqlarının daim aktiv fazada saxlanılmasına və regionun bəzi ərazilərində silahlı insidentlərin davamlı xarakter almasına, xarici qeyri-hökumət qeyri-kommersiya və beynəlxalq təşkilatların "yumşaq güc" vasitələrindən istifadə etməklə MDB məkanında ictimai-siyasi sabitliyi pozmaq məqsədi güdən əməllərinə qarşı birgə mübarizə barədə geniş fikir mübadiləsi aparılmış, qarşılıqlı əməkdaşlıq münasibətləri üzrə müvafiq sənədlər imzalanıb.

İclas çərçivəsində Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin tədbir iştirakçıları ilə videoformatda keçirilmiş görüşündə Rusiya dövlət başçısı çıxış edərək dünyada geosiyasi gərginliklərin gündən-günə artdığını, bu vəziyyətin birlik ölkələrinin təhlükəsizliyinə təsirsiz ötüşmədiyini vurğulayıb, regional təhlükəsizliyi ciddi risk altına alan hallara effektiv və operativ reaksiya göstərilməsi üçün xüsusi xidmət orqanlarının işgüzar təmaslarının daha sıx təşkil olunmasının vacibliyinə toxunaraq, bu orqanlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

# Aİ ölkələrinin nümayəndələri Ermənistanın sülh prosesinə xələl gətirən təxribatları barədə məlumatlandırılıb

**Oktyabrın 26-da xarici işlər naziri Ceyhun Bayramov Avropa İttifaqına (Aİ) üzv ölkələrin Azərbaycan Respublikasındakı diplomatik nümayəndəliklərinin rəhbərləri ilə görüşüb.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycan və Aİ arasında siyasi, iqtisadi, enerji, investisiya, təhsil və digər sahələrdə mövcud əməkdaşlıq gündəliyi, həmçinin bölgədəki cari vəziyyət barədə fikir mübadiləsi aparılıb.

Nazir Ceyhun Bayramov iqtisadi sahədə, xüsusilə Avropanın enerji təhlükəsizliyinin təmin edilməsi, enerji təminatının diversifikasiyasında Azərbaycanın rolundan bəhs edib. Bu xüsusda 2022-ci il iyulun 18-də Aİ-yə qaz nəqlinin iki dəfə artırılması, o cümlədən alternativ enerji mənbələrinin inkişafında əməkdaşlığın genişləndirilməsini nəzərdə tutan anlaşma memorandumunun imzalanmasının əhəmiyyəti vurğulanıb. İşğaldan azad olunmuş ərazilərdə geniş enerji potensialının mövcudluğu və bu potensialdan səmərəli istifadə üçün Azərbaycan tərəfindən bir sıra layihələrin həyata keçirildiyi diqqətə çatdırılıb.

Azərbaycan və Aİ arasında investisiyalar sahəsində əməkdaşlıqdan bəhs edən nazir Ceyhun Bayramov Azərbaycanın investisiyaları təşviq edən ilk ölkələrdən biri kimi bu xüsusda imzalanan müqavilələrdə təsbit edilən öhdəliklərə daim sadiq olduğunu bildirib.

Nazir Ceyhun Bayramov Azərbaycan və Aİ arasında mövcud ticarət dövriyyəsinin məmnunluq doğurduğunu, habelə dövriyyənin daha da artırılması üçün imkanların mövcud olduğunu ifadə edib.

Ceyhun Bayramov Azərbaycanın "Şərq-Qərb" dəhlizində tutduğu yerin, o cümlədən bu istiqamətdə həyata keçirilən layihələrin əhəmiyyətini qeyd edib. Bu xüsusda bölgədə kommunikasiyaların açılması, o cümlədən Zəngəzur dəhlizinin işə salınması istiqamətində Azərbaycan tərəfindən atılan addımların Ermənistanın qeyri-konstruktiv mövqeyi ilə üzləşdiyi diqqətə çatdırılıb.

Nazir həmçinin postmünaqişə mərhələsində regionda yaranmış yeni reallıqlar, Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşdırılması, sülh müqaviləsinin imzalanması, bölgədə yaşayan erməni əhalinin reinteqrasiyası istiqamətində Azərbaycan tərəfindən atılan addımlar, habelə mina təhlükəsi, Ermənistanın sülh prosesinə xələl gətirən təxribatları haqqında görüş iştirakçılarına ətraflı məlumat verib.

Daha sonra çıxış edən Aİ-nin Azərbaycandakı nümayəndəliyinin rəhbəri, səfir Petr Mixalko Azərbaycan və Aİ arasında əməkdaşlıq imkanlarının, habelə regionda vəziyyətin müzakirəsi üçün yaradılan belə bir şəraitə görə təşəkkür edib. Petr Mixalko əməkdaşlığın inkişafında ali və yüksəksəviyyəli təmasların mühüm rol oynadığını bildirib. Bu xüsusda Azərbaycanla Avropa İttifaqı arasında yeni saziş layihəsinin tezliklə yekunlaşdırılmasının əlaqələrin daha da inkişaf etdirilməsinə mühüm töhfə verəcəyinə dair inam ifadə olunub.

Daha sonra nazir Aİ-yə üzv ölkələrin Azərbaycan Respublikasındakı diplomatik nümayəndəliklərinin rəhbərlərinin çoxsaylı suallarını cavablandırıb.

# ADA Universitetində "Nizami Gəncəvi: şair və müdrik. Dəyərlər və müdrikliyə aparan yol" mövzusunda müzakirələr aparılıb

**Oktyabrın 27-də ADA Universitetində "Nizami Gəncəvi: şair və müdrik. Dəyərlər və müdrikliyə aparan yol" adlı tədbir keçirilib.**



AZƏRTAC xəbər verir ki, tədbir ADA Universiteti, İnkişaf və Diplomatiya İnstitutu və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin birgə təşkilatçılığı ilə keçirilən tədbirdə sabiq dövlət və hökumət başçıları, beynəlxalq təşkilatların rəhbərləri iştirak ediblər.

Əvvəlcə ADA Universitetinin rektoru Hafiz Paşayev qonaqları salamlayaraq tədbirin əhəmiyyətini qeyd edib.

Sonra Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri İsmayıl Serageldin çıxış edərək görkəmli şair və mütəfəkkir Nizami Gəncəvinin irsindən danışıb. Bildirib ki, Nizami Gəncəvi irsi qlobal səviyyədə tanınıb və qəbul edilib. Həmçinin bu irs bu günədək aktualdır. Nizami Gəncəvi öz yaradıcılığında elə bəşəri dəyərlərə toxunub ki, bu gün həmin dəyərlər daha böyük əhəmiyyətə malikdir.

BMT Baş Assambleyasının 75-ci sessiyasının prezidenti Volkan Bozkır bu gün dünyanın üzləşdiyi müxtəlif təhlükələrdən və çətinliklərdən söz açıb. O, eyni zamanda COVID-19 və onun ağır nəticələrini xüsusi vurğulayıb. Rusiya-Ukrayna müharibəsindən söz açan Volkan Bozkır bildirib ki, onun nəticələri təkcə iki ölkəyə deyil, bütünlüklə planetə təsir edir. Bu gün dünyada ərzaq təhlükəsizliyi ciddi problemə çevrilib. Müxtəlif ölkələr ərzaq çatışmazlığı ilə üzləşiblər. Yüz illər əvvəl Nizami Gəncəvi öz yaradıcılığında bu problemlərin bəzilərinə toxunmuşdu. Nizami Gəncəvi yaradıcılığının fəlsəfəsi həm də ondan ibarətdir ki, bəşəriyyət həmrəylik sayəsində böhranların öhdəsindən gələ bilər.

Tədbirdə həmçinin ICESCO-nun sabiq prezidenti Əbdüləziz bin Osman əl-Tuveycri, Gürcüstanın sabiq prezidenti Georgi Marqvelaşvili, Bosniya və Herseqovinanın sabiq Baş naziri Zlatko Laqumdziya da çıxış edərək bu il 10 illik yubileyini qeyd edən Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin şairin yaradıcılığının dünyada tanıdılmasında böyük əhəmiyyətə malik olduğunu vurğulayıblar. Qeyd edilib ki, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin fəaliyyəti beynəlxalq səviyyədə problem və çağırışlara cavab tapmağa imkan verir.

Tədbirdə beynəlxalq əhəmiyyət daşıyan mövzular müzakirə edilib, tələbələri maraqlandıran suallar cavablandırılıb.

# YAP-ın təsis edilməsinin 30-cu ildönümü ilə əlaqədar silsilə tədbirlər davam edir

Yeni Azərbaycan Partiyasının (YAP) təsis edilməsinin 30-cu ildönümü ilə əlaqədar partiyanın Mərkəzi Aparatı tərəfindən hazırlanmış və İdarə Heyətinin qərarı ilə təsdiq edilmiş tədbirlər planına uyğun olaraq silsilə tədbirlər davam edir.

Tədbirlər planı çərçivəsində oktyabrın 27-də partiyanın Nəsimi, Laçın, Göyçay və Hacıqabul rayon təşkilatları tərəfindən Yeni Azərbaycan Partiyasının yaradılmasının 30-cu ildönümü ilə əlaqədar tədbirlər keçirilib.

Tədbirlərdə Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi dərin ehtiramla yad edilib.

Keçirilən tədbirlərdə - Nəsimi rayonunda YAP Nəsimi Rayon Təşkilatının sədri Azər Süleymanov, Nəsimi Rayon İcra Hakimiyyətinin başçısı Asif Əsgərov, Bakı Slavyan Universitetinin rektoru Anar Nağıyev, Milli Məclisin Səhiyyə komitəsinin sədri, YAP Veteranlar Şurasının üzvü, akademik Əhliman Əmiraslanov, YAP İdarə Heyətinin üzvü, Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru, professor Ədalət Muradov, Laçın rayonunda YAP Laçın Rayon Təşkilatının sədri İlqar İlyasov, YAP İdarə Heyətinin üzvü Asif Əsgərli, Milli Məclisin deputatı Mahir Abbaszadə, Laçın Rayon İcra Hakimiyyətinin başçısı Aqil Nəzərli, Göyçay rayonunda YAP Göyçay Rayon Təşkilatının sədri Sahib Şükürov, Göyçay Rayon İcra Hakimiyyətinin başçısı Natiq Ağayev, YAP İdarə Heyətinin üzvü, Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı, YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Cavid Osmanov, Hacıqabul rayonunda YAP Hacıqabul Rayon Təşkilatının sədri Elnur Əmirəslanov, Milli Məclisin deputatı Malik Həsənov, Hacıqabul Rayon İcra Hakimiyyətinin başçısı Rüstəm Xəlilov, YAP Veteranlar Şurasının sədri, partiyanın İdarə Heyətinin üzvü Arif Rəhimzadə və başqaları çıxış ediblər.

Çıxışlarda Ulu Öndər Heydər Əliyevin xalqımız qarşısında misilsiz xidmətlərindən, Prezident İlham Əliyevin milli maraqlara əsaslanan siyasətinin uğurlu nəticələrindən bəhs olunub, Yeni Azərbaycan Partiyasının 30 il ərzində keçdiyi zəngin və şərəfli inkişaf yoluna nəzər salınıb.

Tədbirlərdə YAP sıralarına yeni qəbul olunmuş şəxslərə üzvlük vəsiqələri və partiya fəallarına fəxri fərmanlar təqdim edilib.

Bundan əlavə, tədbirlər planına uyğun olaraq oktyabrın 27-də YAP Nizami Rayon Təşkilatının gənc fəalları Heydər Əliyev Mərkəzini ziyarət ediblər.

# Prezident İlham Əliyevin göstərişinə əsasən bölgələrdə vətəndaşların qəbulu keçirilir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına əsasən, mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov oktyabrın 26-da və 27-də Bərdə Rayon Polis Şöbəsində daxili işlər orqanlarının fəaliyyəti və səlahiyyəti ilə bağlı məsələlərlə əlaqədar növbəti qəbul keçirib.

Daxili İşlər Nazirliyinin Mətbuat xidmətindən bildirilib ki, sonra rayon polis şöbəsinin inzibati binasında Bərdə, Ağcabədi, Tərtər, Ağdam, Şuşa, Laçın, Beyləqan, Füzuli, Xocavənd, Goranboy, Xocalı, Naftalan şəhər və rayonlarının 152 sakinini qəbul edən nazir onların polis orqanlarının fəaliyyəti ilə bağlı müraciətlərini dinləyib, problemlərinin operativ həlli üçün nazirliyin aidiyyəti baş idarə və idarə rəislərinə tapşırıqlar verib.

Müraciətlərin böyük əksəriyyəti yerində həllini tapıb.

Daha sonra general-polkovnik V.Eyvazov bölgə üzrə polis orqanlarında sıravi və kiçik rəis heyətinə xidmətə qəbulla bağlı sıra baxışı keçirib.

Sıra baxışında ətraf rayonlarda yaşayan, polis orqanlarında xidmət etmək arzusunda olan gənclər iştirak ediblər. Xidmətə qəbulun şərtlərinə uyğun gələn 325 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb ki, onlardan da 78-i Vətən müharibəsi iştirakçısı olub.

* * *

Oktyabrın 27-də Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova Gəncə şəhərindəki Heydər Əliyev Mərkəzində vətəndaşları qəbul edib.

Dövlət Komitəsindən bildirilib ki, qəbulda Gəncə şəhəri, Samux və Kəlbəcər rayon sakinlərinin ərizə, müraciət və təkliflərinə baxılıb.

Qəbulda iştirak edən vətəndaşların müraciətləri alimentin təyin olunması, uşaqların dövlət müəssisəsinə yerləşdirilməsi, işlə təminolunma, sağlamlıq imkanları məhdud uşaqların müalicəsi, nikaha xitam verildikdən sonra uşaqlarla ünsiyyətin qurulması, ünvanlı sosial yardım, məişət zorakılığı və bir sıra digər məsələlərlə bağlı olub.

Vətəndaşların Dövlət Komitəsinin səlahiyyət dairəsinə aid müraciətləri Dövlət Komitəsinin müvafiq struktur bölmələrinin məsul şəxslərinin iştirakı ilə dinlənilib, ərizələri qəbul edilərək, müvafiq tədbirlərin görülməsi ilə bağlı tapşırıqlar verilib.

***AZƏRTAC***

Əvvəli 1-ci səh.

Xatırladaq, bu ilin iyun ayında "Qlobal dünya nizamına təhdidlər" mövzusuna həsr olunan IX Qlobal Bakı Forumunda 50-dən çox ölkənin, eləcə də nüfuzlu beynəlxalq təşkilatların nümayəndələri iştirak edirdi. Forumda qlobal dünya nizamını təhdid edən mühüm problemlər, o cümlədən dünyada təhlükəsizliyin və sülhün təmin olunması üçün perspektivlər, enerji təhlükəsizliyinə yaranan təhdidlərin həlli yolları, həssas bölgələrdə sülh, əməkdaşlıq və inteqrasiya, qloballaşan dünyada artan ədalətsizliklər, yoxsulluğun qarşısının alınması üçün qida və kənd təsərrüfatı sektorunun transformasiyası kimi mühüm mövzularda müzakirələr aparılıb.



# Azərbaycanı dünyaya tanıdan əməkdaşlıq platforması

**10 il əvvəl yaradılan Nizami Gəncəvi Beynəlxalq Mərkəzi öz fəaliyyəti ilə ölkəmizin beynəlxalq uğurlarının artmasına layiqli töhfələr verir**

### Siyasi xadimləri, nüfuzlu beynəlxalq ekspertləri birləşdirən mərkəz

Qeyd etdiyimiz kimi, Qlobal Bakı Forumu Prezident İlham Əliyevin himayəsi altında keçirilir. Forumun təşkilatçısı isə Nizami Gəncəvi Beynəlxalq Mərkəzidir. Mərkəz dahi Azərbaycan şairi Nizami Gəncəvinin 870 illik yubiley tədbirləri çərçivəsində 30 sentyabr 2012-ci il tarixdə şairin vətəni Gəncə şəhərində keçirilmiş xüsusi toplantıda təsis edilmişdir. Bakı şəhərində yerləşən mərkəz qeyri-hökumət təşkilatı olaraq ətrafında müxtəlif xarici ölkələrin keçmiş dövlət və hökumət başçılarını və nüfuzlu beynəlxalq ekspertləri birləşdirir. Məqsədi dünyada sülh, dinc birgəyaşayış, ədalətin bərqərar olunması naminə həyata keçirilən qlobal tədbirlərə, həmçinin fəaliyyətlərə töhfə vermək olan mərkəz eyni zamanda Nizami Gəncəvinin irsinin araşdırılmasını, dünyada təbliğini, eləcə də dialoq, tolerantlıq, qarşılıqlı anlaşma və mədəniyyətlərarası dialoqu təşviq edir.

Bu istiqamətdə uğurlu fəaliyyətinə görə qlobal problemlərin həlli yollarını araşdıran və bu barədə dünya ictimaiyyətini məlumatlandıran mərkəz mühüm beynəlxalq platformaya çevrilib. Fəaliyyət göstərdiyi 10 il ərzində 20-dən çox ölkədə (o cümlədən Azərbaycan, Belçika, Çin, Misir, Yunanıstan, İtaliya, İordaniya, Latviya, Polşa, İsveçrə, Türkiyə, ABŞ və s.) 24 ali səviyyəli görüşlərə, 10-dan çox faktaraşdırıcı missiyaya və 20-dən çox koordinasiya görüşlərinə ev sahibliyi edib. Ən mühümü odur ki, mərkəzin təşkil etdiyi tədbirlərə maraq ildən-ilə artmaqdadır.

Prezident İlham Əliyevin himayəsi altında fəaliyyət göstərən Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin yaranmasından 10 il ötür. Oktyabrın 26-da mərkəzin həmsədri İsmail Serageldini, İdarə Heyətinin üzvlərini, keçmiş dövlət və hökumət başçılarını qəbul edən Prezident İlham Əliyev qurumun beynəlxalq səviyyədə əməkdaşlığının genişlənməsindən, dünyada rolunun və nüfuzunun artmasından məmnunluğunu ifadə edib.

Uğurlu fəaliyyətinə görə Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin nüfuzu ildən-ilə yüksəlib, beynəlxalq təşkilatlar və bir sıra ölkələrin aparıcı institutları ilə birbaşa əlaqələr yaradılıb.

Əvvəldə qeyd etdiyimiz kimi, paytaxtımız Bakı aktual qlobal problemlərin həlli ilə bağlı müzakirələrin keçirildiyi beynəlxalq ünvana çevrilib. Nizami Gəncəvi Beynəlxalq Mərkəzi isə Azərbaycanın bu istiqamətdə təşəbbüslərinə beynəlxalq tədbirlərin keçirilməsi ilə layiqli töhfələr verir. 10 yaşı tamam olan bu mərkəz hazırda Azərbaycanı dünyaya tanıdan əməkdaşlıq platformasıdır.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*

# Siyasi partiyaların fəaliyyətində hansı dəyişikliklər baş verəcək?

**Yeni qanun layihəsi bu sahədə köklü və müsbət yenilikləri təşviq edir**

Əvvəli 1-ci səh.







### Siyasi münasibətlər sistemi modernləşdirilir

Milli Məclisin Sədr müavini, parlamentin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Fəzail İbrahimli bildirib ki, yeni qanun layihəsi ölkədə həyata keçirilən siyasi islahatların davamı və zamanın tələbidir: "2020-ci il martın 10-da altıncı çağırış Milli Məclisin ilk iclasında Prezident İlham Əliyevin milli və siyasi həmrəyliyin daha da gücləndirilməsini anons edən nitqində siyasi islahatlar və siyasi dialoq mühüm yer tuturdu. Məhz bu çıxışdan sonra Azərbaycanda çoxpartiyalı sistemin daha möhkəm əsaslar üzərində qurulması, dayanıqlı inkişafın, siyasi sabitliyin, həmrəylik mühitinin və demokratik ənənələrin təminatçısı olan siyasi dialoqun inkişaf etdirilməsi dövlət siyasətinin strateji vəzifələrindən birinə çevrilib. Bu günlərdə geniş ictimai müzakirəyə təqdim edilən "Siyasi partiyalar haqqında" qanun layihəsi də sözügedən islahatların vacib elementidir. Yeni qanunun hazırlanmasını zəruri edən digər amillər də var. Azərbaycanın siyasi sistemində və partiyaların fəaliyyətində ciddi yeniliklərin, irəliləyişlərin olduğunu nəzərə alsaq, deyə bilərik ki, 1992-ci ildə qəbul olunmuş qanun müasir dövlətimizin və cəmiyyətimizin inkişafına adekvat deyil. Ona görə siyasi partiyaların fəaliyyətinin daha yüksək səviyyədə qurulması üçün yeni qanuna ehtiyac var".

Fəzail İbrahimlinin sözlərinə görə, Vətən müharibəsi dövründəki milli həmrəylik, siyasi partiyaların 44 gün ərzində siyasi maraqlarını bir kənara qoyaraq ümummilli mövqedən çıxış etməsi və daha sonra diplomatik cəbhədə dövlətimizin mövqeyinin qətiyyətlə müdafiəsi ölkədə yeni siyasi mühitin formalaşdığının göstəricisidir. Siyasi partiyalar haqqında qanunvericiliyin yenilənməsini zəruri edən amillərdən biri də budur.

"Yeni qanun layihəsi ilə bağlı digər diqqətçəkən məqam odur ki, bu qanunun hazırlanması zamanı ölkəmizdə fəaliyyət göstərən siyasi partiyaların təklifləri ilə yanaşı, beynəlxalq təcrübə də nəzərə alınıb. Həmçinin ictimaiyyətin, vətəndaş cəmiyyəti təşkilatlarının, dövlət orqan və qurumlarının səndələ tanış olması üçün qanun layihəsinin ilkin variantının Milli Məclisin saytında yerləşdirilməsi qanunvericilik prosesində təqdirəlayiqdir. Aparılan aktiv müzakirələr yeni siyasi konfiqurasiyanın yüksək səviyyədə qurulmasında əhəmiyyətli rol oynayacaq qanunun qəbul ediləcəyinə inam yaradır. Siyasi partiyaların təkliflərinin, beynəlxalq təcrübənin, eləcə də keçiriləcək ictimai dinləmələrin nəticəsində əldə edilən mülahizələrin ardıcıllıqla nəzərə alınması ilə müasir dövrün tələblərinə cavab verəcək "Siyasi partiyalar haqqında" yeni qanun siyasi sistemimizin təkmilləşdirilməsinə səbəb olacaq", - deyə parlament sədrinin müavini qeyd edib.

Fəzail İbrahimli deyib ki, yeni qanun layihəsinin konsepsiyası Prezident İlham Əliyevin apardığı siyasi islahatların tərkib hissəsi kimi dəyərləndirilməli və qəbul edilməlidir: "Biz həm bugünün, həm də gələcəyin tələblərinə cavab verə biləcək qanun layihəsi hazırlamalıyıq. Beləliklə də, bu, dövlət başçısının apardığı siyasi islahatların tərkib hissəsi kimi önə çıxacaq və partiyaların Azərbaycanın siyasi həyatında rolunun artmasına geniş imkanlar yaranacaq. Əminliklə demək olar ki, ictimaiyyətin açıq müzakirəsinə verilən, demokratik prinsiplərə uyğun hazırlanan "Siyasi partiyalar haqqında" qanun layihəsi ölkəmizdə siyasi münasibətlər sisteminə modernləşmə, rasionallıq gətirərək siyasi sistemin palitrasını zənginləşdirəcək".

### Yeni qanun siyasi partiyaların fəaliyyəti üçün geniş imkanlar yaradacaq

Milli Məclisin deputatı, Ana Vətən Partiyasının (AVP) sədri Fəzail Ağamalı qeyd edib ki, Prezident İlham Əliyevin həyata keçirdiyi islahatlar arasında xüsusi əhəmiyyət kəsb edənlərdən biri də siyasi islahatlardır: "2020-ci ildə sonuncu parlament seçkilərindən sonra yeni siyasi konfiqurasiyanın yaranması, inkişafı və formalaşması üçün dövlət tərəfindən üç mühüm addım atılıb. Milli Məclisin rəhbərliyində Yeni Azərbaycan Partiyası ilə bərabər, parlamentdə təmsil olunan müxalifət partiyalarının da təmsilçiliyinin həyata keçirilməsi siyasi islahatlar arasında xüsusi çəkiyə malikdir. Həmçinin siyasi partiyaların cəmiyyətin inkişafında siyasi sistemə verdiyi töhfələrdə rolunu artırmaq üçün Prezident Administrasiyasında siyasi partiyalarla əlaqələr üzrə xüsusi şöbə yaradılıb. Bu şöbənin əməyi nəticəsində Prezidentin siyasi kursuna uyğun olaraq partiyalarla intensiv münasibətlər qurulub və əməkdaşlıq platformaları yaradılıb. Lakin bütün bunların fonunda qüvvədə olan qanun siyasi partiyaların siyasi sistemdə yerinin və rolunun artırılması üçün müasir çağırışlara cavab vermirdi. Ona görə "Siyasi partiyalar haqqında" yeni qanun layihəsinin hazırlanması zəruri idi".

Fəzail Ağamalının sözlərinə görə, Azərbaycan inkişaf etdikcə onun siyasi immuniteti də güclənir. Nəticədə iqtidarla bərabər, müxalif partiyaların da üzərinə kifayət qədər məsuliyyət düşür. Ona görə də dövrün çağırışlarına uyğun olaraq, siyasi sistemin gücləndirilməsi üçün siyasi partiyaların rolunun artırılması öz aktuallığını xüsusi olaraq saxlayır.

"Müzakirələrə təqdim edilən "Siyasi partiyalar haqqında" yeni qanun layihəsi Azərbaycanın siyasi sistemində partiyaların yerinin güclənməsinə təsir göstərəcək. Məlum olduğu kimi, hazırda 60-a yaxın siyasi partiya dövlət qeydiyyatına alınsa da, onların əksəriyyətinin ictimai-siyasi həyatda fəallığı görünmür. Bu partiyalar zəif olduğuna və ictimai rəyin formalaşmasına təsir göstərə bilmədiklərinə görə yeni qanunla öz seçimlərini edəcəklər. Ən yaxşı seçim müxtəlif partiyaların birləşərək vahid güc mərkəzi kimi siyasi mühitə daxil olmasıdır. Yeni qanun layihəsi bu funksiyanın yerinə yetirilməsinə töhfə verəcək. Yeni qanun siyasi partiyalar üzərinə kifayət qədər məsuliyyət qoymaqla yanaşı, həm də onların fəaliyyəti üçün geniş imkanlar yaradır. Həmin imkanlardan yararlanan partiyalar həm bələdiyyə, həm də parlament seçkilərində üzr qazanıb proseslərdə daha fəal şəkildə iştirak edə bilərlər", - deyə partiya sədri bildirib.

Fəzail Ağamalı qeyd edib ki, qanun layihəsi hazırlanarkən Venesiya Komissiyasının siyasi partiyaların fəaliyyətinin tənzimlənməsi üzrə 2010-cu və 2020-ci illərdə qəbul etdiyi tövsiyələr, həmçinin 20-dən artıq ölkənin təcrübəsi nəzərdən keçirilib: "Xarici təcrübə, eləcə də milli kolorit və xüsusiyyətlərimiz nəzərə alınmaqla hazırlanmış bu qanun layihəsi ciddi sənəddir. Əlbəttə ki, müzakirələr zamanı səsləndirilmiş təkliflərə əsasən, müəyyən cilalanmalar da olacaq, qanunun təkmilləşməsinə xidmət edən təkliflər nəzərə alınacaq. Bilməək lazımdır ki, bu qanunun konsepsiyası siyasi sistemimizdə siyasi partiyaların Azərbaycan dövlətçiliyinə daha ciddi töhfələr verməsinə yönəlib".

### Siyasi partiyalar arasındakı münasibətlər yeni məcraya yönəldilir

Azərbaycan Sosial Rifah Partiyasının sədri Əsli Kazımova deyib ki, xüsusilə son illərdə ölkəmizdə aparılan siyasi islahatlar siyasi mühitin inkişafına müsbət təsir göstərib: "Yeni yaranan siyasi konfiqurasiyanın əsasında siyasi dialoq mühitinin inkişafı dayanır. Bu, Azərbaycanda siyasi sistemi möhkəmləndirmək və siyasi münasibətləri sağlam zəmində gücləndirmək üçün vacib şərtə çevrilib. Həmçinin yeni siyasi reallıqlar da öz növbəsində yeni çağırışları formalaşdırıb. Bu çağırışlardan biri də "Siyasi partiyalar haqqında" qanunvericiliyin daha təkmil və dövrün tələblərinə cavab verəcək səviyyədə yaradılmasıdır".

Yeni qanun layihəsini müsbət dəyərləndirən partiya sədrinin sözlərinə görə, parlamentdə çoxpartiyalı sistemin mövcudluğu ölkədə siyasi dialoq mühitinin daha da möhkəmlənməsinə əsaslı rol oynayır: "Həyata keçirilən mühüm islahatlar nəticəsində ölkədə siyasi partiyalar arasındakı münasibətlər də yeni məcraya qədəm qoyur. Siyasi sistemin formalaşmasında və inkişafında, sözsüz ki, əsas komponent kimi siyasi partiyalar çıxış edir. Yeni qanun da siyasi sistemin daha da möhkəmlənməsinə xidmət göstərəcək".

*Nəzrin QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Azərbaycan ən çətin vaxtlarda İranı müdafiə edib

**Lakin bu ölkədəki antiazərbaycançı dairələrin tutduğu mövqe münasibətlərə xələl gətirir**

Əvvəli 1-ci səh.

### Erməniprəst mövqe İrandakı bəzi dairələrə heç nə verməyəcək

Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev qəzetimizin əməkdaşına açıqlamasında deyib ki, İranın bəzi dairələrinin yürütdüyü anti-Azərbaycan siyasəti bu gün hər bir azərbaycanlını, eləcə də Cənubi Qafqazda yaşayan soydaşlarımızı çox ciddi narahat edir. Onun sözlərinə görə, həmin dairələr erməniprəst siyasət yürütməklə Azərbaycanın milli maraqlarına ciddi ziyan vurmaq fikrindədirlər. Bu, son illər daha da intensivləşib: "İstər 44 günlük müharibə dövründə, istərsə də sonra həmin dairələr açıq şəkildə ermənilərin yanında olduqlarını bəyan ediblər. Onlar Ermənistanı yanacaq, silah, digər hərbi sursatlarla təmin ediblər. İndi də bu hərəkətlərindən çəkinmirlər. Bir çox mühüm məsələnin müzakirəsində Ermənistan tərəfindən çıxış edir, Ermənistanın hərbi-siyasi hakimiyyətinin rəhbərlərini tez-tez İrana dəvət edir, müxtəlif müqavilələr bağlayırlar. Bununla Azərbaycana güc nümayiş etdirmək istəyirlər. Son təlimlər bunun bariz nümunəsidir".

Tahir Rzayev vurğulayır ki, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycanda səfərdə olduğu, onun iştirakı ilə Zəngilan Beynəlxalq Hava Limanının açıldığı bir vaxtda qonşu ölkənin sərhədlərimizdə təlimlər keçirməsi, hətta Araz çayı üzərində körpü salıb gücünü nümayiş etdirməsi anlaşılmaz mövqe ortaya qoyur: "Sonrakı günlərdə Türkiyə sərhədlərində hərbi təlim keçirməsi isə Azərbaycan-Türkiyə birliyinə mesaj vermək məqsədi daşıyır. Təəssüflə qeyd etməliyik ki, bu gün İranın bəzi dairələri din qardaşlığından, islami dəyərlərdən danışır, amma əslində islamın ziddinə gedirlər. Onlar din qardaşları olan Azərbaycanın 30 ildə çəkdiklərini dilə gətirmir, ermənilər tərəfindən dağıdılmış məscidlərin, dini abidələrin təhqir olunmasının hesabını soruşmurlar. Bununla da ermənilərin tərəfində olduqlarını bəyan edirlər. İran xarici işlər nazirinin Qafanda konsulluğun açılması zamanı söylədiyi fikirlər də bunu deməyə əsas verir".

Komitə sədrinin fikrincə, bu gün erməniprəst mövqedən çıxış etmək, azərbaycanlılara qarşı təxribatlar törətmək, onları hərbi güclə qorxutmağa cəhd etmək absurddur. Bu, İrandakı bəzi dairələrə heç nə verməyəcək.

Tahir Rzayev deyir ki, bu cür əməllər davam edərsə, Fransa kimi İranla münasibətlərə də yenidən baxılmalıdır: "Azərbaycan Prezidenti, XİN dəfələrlə bu barədə öz bəyanatlarını veriblər. İranla daim yaxşı münasibətdə olduğumuzu bildiriblər. Təəssüf ki, İranın bəzi dairələri bu fikirlərə, diqqətə, sülhsevər münasibətə həmişə yanlış mövqedən yanaşıb. Son iki ayda da bu özünü açıq-aydın göstərir".

Tahir Rzayev deyir ki, Azərbaycanla qonşu dövlət kimi münasibətləri pozmaq İran üçün faciə ola bilər. Çünki Azərbaycan ən çətin vaxtlarda İranı müdafiə edib. Xarici ölkələr İrana qarşı müəyyən sanksiyalar tətbiq edəndə, hücum planları hazırlayanda Azərbaycan bunlara öz etirazını bildirib. Ölkəmizin ərazisindən İrana qarşı hansısa tədbirlər görülməsinə, manevrlər edilməsinə icazə verməyib. Belə olan halda ölkəmizə qarşı sərgilənən bugünkü mövqe hər bir azərbaycanlını, eləcə də türk dünyasını narahat edir. Ona görə də İran bu barədə düşünməlidir. Azərbaycanın yürütdüyü sülh, əməkdaşlıq, əmin-amanlıq siyasətidir. Hazırlanan bütün layihələr, Zəngəzur dəhlizinin açılması regionda əlaqələrin genişləndirilməsinə, inkişafına hesablanıb. Bütün bunlar İranın da xeyrinədir.

Deputat düşünür ki, İran bu məsələlərin həllində həm Azərbaycana dəstək verməli, həm də gələcək inkişafının təminatı üçün görülən işlərə görə Azərbaycana minnətdar olmalıdır. Əks təqdirdə münasibətlər pozula bilər.

### Yanlış siyasətin zərəri

Milli Məclisin deputatı Fazil Mustafa isə deyir ki, son vaxtlar İranın xarici siyasəti daxilində olan gərginlikdən doğan proseslərin təzahürüdür. Onun sözlərinə görə, bu ölkədəki bəzi dairələr gərginliyi müəyyən dərəcədə xarici siyasətə daşıyaraq daxildəki prosesləri bir qədər səngitməyə çalışır. Əslində, bu həm də daxildəki proseslərə böyük təsir göstərəcək yanlış addımdır.

Deputat düşünür ki, Azərbaycanla düşmənçilik etmək, sərhəddə təlimlər keçmək, güc nümayiş etdirmək çox yersiz addımdır. Ermənistanın arxasında duran qüvvələr İrandakı dairələrdən qat-qat güclü idi. Onlar hər hansı şəkildə Azərbaycana qarşı bu iradəni gerçəkləşdirə bilmədilər, çünki dövlətimiz vaxtında imkanlarını səfərbər edərək bu məsələdə müəyyən addımlar atmağı bacardı.

Fazil Mustafa hesab edir ki, İrandakı antiazərbaycançı dairələr qonşuluğun müəyyən prinsiplərini pozan addımlara meyil edir. Xüsusilə təlimlər zamanı Araz çayı üzərində körpülərin inşa edilməsi və digər yanlış hərəkətlər onların özlərinə çox böyük zərbə vuracaq, çünki korlanmış münasibətləri sonradan bərpa etmək xeyli çətin olacaq.

Deputat deyir ki, qonşu ölkənin hərəkəti heç də ağıllı siyasət yürütmə mənasına gəlmir: "Otuz ildə ermənilərə dəstək verəsən, sonda isə deyəsən ki, Təbrizin təhlükəsizliyi Ermənistanla bağlıdır, Ermənistanı qoruyacağıq. Kimdən qoruyacaqsız?"

Fazil Mustafa bildirir ki, Ermənistanın müsəlmanlara qarşı etdiyi cinayətlərin hər birini görməzdən gələrək cinayətkarın, terrorçunun yanında olmaq İranın həmin dairələrə necə fayda gətirəcəyini yaxın zamanda görəcəyik. Bu siyasət ABŞ-a yarınmaq üçün atılmış addımdır: "Çox istərdik ki, əlaqələr hüquqi çərçivədə, qonşu, dost münasibətləri olsun, amma İrandakı qüvvələr düşmən mövqeyində duracaqsa, onda Azərbaycan da istənilən şəkildə öz iradəsini ortaya qoyacaq".

İranda keçirilən təlimlərin, atılan addımların hamısı səmərəsiz davranışlardır. Gözləyək ki, İran hakimiyyəti yaxın zamanlar bu yanlışlığa aydınlıq gətirəcəkmi?

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Baş Prokurorluq Ermənistanın Bərdəyə raket hücumlarının ildönümü ilə əlaqədar bəyanat yayıb

Baş Prokurorluq ermənilərin Bərdəyə raket hücumlarının ildönümü ilə əlaqədar bəyanat yayıb.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a daxil olmuş bəyanatda deyilir: "Bəyan edirik ki, Ermənistan Respublikasının silahlı qüvvələri beynəlxalq hüququn norma və prinsiplərini, 1949-cu il tarixli Cenevrə konvensiyaları və onların Əlavə protokollarını, 2020-ci ilin sentyabrın 27-də başlayan 44 günlük Vətən müharibəsinin gedişatında əldə olunmuş humanitar atəşkəs rejiminin tələblərini pozaraq, döyüş meydanındakı acınacaqlı məğlubiyyətlərinin əvəzini çıxmaq üçün Azərbaycanın münaqişə zonasından uzaqda yerləşən şəhər və rayonlarındakı mülki infrastruktur obyektlərini - yaşayış evlərini, xəstəxanaları, tibb məntəqələrini, məktəb binalarını, uşaq bağçalarını, dövlət qurumlarının inzibati binalarını, təsərrüfat təyinatlı əraziləri hədəf seçmiş, müxtəlif növ silahlarla, ballistik raketlərlə, eyni zamanda qadağan olunmuş artilleriya silahları ilə atəşə tutaraq insanlıq və sülh əleyhinə, habelə müharibə cinayətləri törədib, müharibəyə hər hansı aidiyyəti olmayan, gündəlik qayğıları ilə yaşayan mülki şəxsləri vəhşicəsinə qətlə yetirib, mülki əhaliyə, dövlət əmlakına, o cümlədən infrastruktur obyektlərinə, habelə sahibkarlıq fəaliyyəti subyektlərinə irimiqyaslı zərər vurublar.

Belə ki, 2020-ci il oktyabrın 5-də Ermənistanın silahlı qüvvələri tərəfindən müharibə ərazisindən kənarda yerləşən Bərdə şəhərinə ilk raket hücumu edilib, nəticədə 1-i qadın, 1-i kişi olmaqla 2 nəfər qəsdən öldürülüb, 2-si qadın, 5-i kişi olmaqla 7 nəfər dinc sakin xəsarət alıb.

Təcavüzkar dövlət tərəfindən 2020-ci il oktyabrın 8-də Bərdəyə ikinci raket hücumu edilib, nəticədə 8 (kişi) nəfər dinc sakin müxtəlif dərəcəli xəsarət alıb.

2020-ci il oktyabrın 27-də Bərdə rayonunun Qarayusifli kəndinin raket hücumuna məruz qalması nəticəsində 3-ü qadın, 1-i kişi, 1-i uşaq olmaqla 5 nəfər ölüb, 7-si qadın, 7-si uşaq olmaqla 14 nəfər xəsarət alıb.

Qeyd edilən tarixlərdə Bərdə rayonunun raket və ağır artilleriyadan bombalanması nəticəsində 4-ü qadın, 2-si kişi, 1-i uşaq olmaqla 7 nəfər şəxs qəsdən öldürülüb, 9-u qadın, 13-ü kişi, 7-si uşaq olmaqla 29 nəfər yaralanıb, şəhərdə yerləşən mülki infrastruktur obyektlərinə, nəqliyyat vasitələrinə, yaşayış evlərinə və digər tikililərə külli miqdarda ziyan dəyib.

Ermənistanın hərbi-siyasi rəhbərliyinin göstərişi ilə şəhər əhalisinin gur olduğu yerlər, o cümlədən mülki şəxslərin kompakt yaşadığı hissələrin hədəfə alınmasında məqsəd daha çox insanın həyatına son qoymaq olub.

Azərbaycan Respublikasının Baş Prokurorluğu beynəlxalq təşkilatları və bütövlükdə dünya ictimaiyyətini Azərbaycanın mülki əhalisini məqsədli şəkildə hədəf seçərək onların qətli ilə nəticələnən sülh və insanlıq, eləcə də müharibə cinayətləri törətmiş Ermənistana və onun hərbi-siyasi rəhbərliyinə qarşı hüquqi məsuliyyət tədbirlərini görməklə beynəlxalq hüququn aliliyini təmin etməyə çağırır.

İnsanlıq və sülh əleyhinə olan cinayətləri qınayır, həlak olanların xatirəsini dərin hüznlə yad edirik!"

# Ağdam Zəfər forumuna evsahibliyi edib

*Əvvəli 1-ci səh.*

Qonaqlar tədbirdən öncə Ulu Öndər Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzüb, Şəhidlər xiyabanını ziyarət ediblər.

Sonra "Əsgərə məktub" layihəsi çərçivəsində Vətən müdafiəçilərinə məktublar ünvanlanıb.

Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü, müharibə və Silahlı Qüvvələr veteranı, Zəfər paradının ssenari müəllifi və aparıcısı polkovnik Abdulla Qurbaninin moderatorluq etdiyi tədbirdə ənənəvi olaraq görkəmli dövlət xadimi Heydər Əliyevin və respublikamızın suverenliyi, ərazi bütövlüyü uğrunda şəhidlik zirvəsinə ucalan Vətən övladlarının xatirəsi birdəqiqəlik sükutla yad edilib, hərbi orkestrin müşayiəti ilə Dövlət himni ifa olunub.










Ağdam Rayon İcra Hakimiyyətinin başçısı Vaqif Həsənov etimad göstərilərək növbəti Zəfər forumunun bu rayonda keçirilməsinə görə təşkilatçılara minnətdarlığını bildirib. O, Prezident İlham Əliyevin rəhbərliyi altında xalqımıza böyük qələbə yaşadan döyüşçülərimizə, şəhid ailələrinə və qazilərimizə diqqət və qayğının artırılmasında, rəşadətli ordumuza mənəvi və maddi dəstək göstərilməsində səylərini bundan sonra da əsirgəməyəcəklərini deyib.

Prezident Administrasiyasının sektor müdiri Vüsal Quliyev forum iştirakçılarını salamlayaraq İkinci Qarabağ müharibəsində qazanılan möhtəşəm qələbənin tarixi əhəmiyyətindən bəhs edib. Vüsal Quliyev rəşadətli ordumuzun əsgər və zabitlərinin addım-addım irəliləyərək Ermənistanın uzun illər ərzində qurduğu mühəndis-istehkam sistemlərini yarıb keçdiklərini, torpaqlarımızın qəhrəman döyüşçülərimizin qanı və canı bahasına azad edildiyini, Azərbaycan xalqının əzmi və iradəsi, iqtisadi gücü, müasir ordu quruculuğu və xalq-iqtidar birliyi nəticəsində qələbənin təmin olunduğunu nəzərə çatdırıb. Azərbaycan Respublikasında Anım Gününün, Zəfər Gününün təsis edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamlarının əhəmiyyəti barədə danışıb.

Ağdam, Ağcabədi, Beyləqan, Füzuli, Bərdə, Tərtər, Zərdab, İmişli, Laçın və Xocavənd rayonlarından olan şəhid ailələrinin üzvləri, müharibə iştirakçıları və müvafiq qurumların nümayəndələri çıxışlarında Müzəffər Ali Baş Komandanın Azərbaycan naminə əmrlərinə hər an hazır olduqlarını bildiriblər.

Forum iştirakçıları adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə müraciət edilib, xalqımıza zəfər sevincini yaşatdığına görə dərin ehtiram ifadə olunub.

Əməkdar artist, polkovnik-leytenant Cahangir Qurbanovun rəhbərlik etdiyi Həzi Aslanov adına Ordu İdeoloji İş və Mədəniyyət Mərkəzinin yaradıcı kollektivinin iştirakı ilə hərbi marş və vətənpərvərlik mahnıları alqışlarla qarşılanıb.

Nümayəndə heyətlərinə Müdafiə Nazirliyi adından A.Qurbaninin "Böyük gələcəyə baxış" və "Vətən müharibəsi şəhidləri" adlı kitabları hədiyyə edilib.

Qeyd edək ki, növbəti forumlar İsmayıllı, Sabirabad və Bakıda keçiriləcək.

# Zəngəzur dəhlizi qlobal nəqliyyat-logistik layihəyə çevriləcək

*Əvvəli 1-ci səh.*

Zəngəzur və ya Şərqi Zəngəzur-Naxçıvan-İran dəhlizinin açılması isə Orta dəhlizin (Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu) daha səmərəli və etibarlı marşrut olmasına mühüm töhfə verəcək.

## Orta dəhliz - tarixi Böyük İpək yolu bərpa olunur

Hazırda Orta dəhliz uzaq Çindən yüklərin Avropaya və Yaxın Şərqə daşınması üçün ən təhlükəsiz marşrutlardan hesab edilir. Bu marşrut Şimal dəhlizindən orta hesabla 2500 kilometr qısadır və dəmir yolu ilə səyahət müddətini yeddi-səkkiz günə azaltmaq potensialına malikdir. O, həmçinin keçdiyi ölkələr arasında ticarətin inkişafına kömək etmək iqtidarındadır.

Bu dəhliz həm də tarixi Böyük İpək yolunun yenidən canlandırılmasını şərtləndirir. Çünki Orta dəhliz vasitəsilə yüklər Çin, Qazaxıstan, Türkmənistan, Azərbaycan, Gürcüstan, Türkiyə və daha sonra Avropaya daşınacaq. Bu da İpək younun bərpası deməkdir.

Bu dəhlizin əhəmiyyətini artıran digər məsələ isə Rusiya-Ukrayna münaqişəsi ilə bağlıdır. Çünki Rusiya vasitəsilə Asiyadan Avropa Birliyi (Aİ) bazarlarına məhsulların tədarükündə problemlərin yaranması Orta dəhlizə olan marağı gücləndirir. Bu baxımdan dəhlizin fəaliyyətinin gücləndirilməsi Qərb və Şərq arasında təbii körpü rolunu oynayan Azərbaycan üçün də böyük əhəmiyyət daşıyır.

Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu kimi tanınan Orta dəhliz üzrə hərəkət edən blok qatarı yükləri orta hesabla 20-25 günə Çindən Avropaya çatdırır ki, bu da nəqliyyat dəhlizinin əsas üstünlüklərindən biridir. 2017-ci ildə işə düşən layihənin əhəmiyyəti 2022-ci ildə Ukrayna-Rusiya münaqişəsindən sonra kəskin şəkildə artıb. Bunu iqtisadi göstəricilər də təsdiqləyir. Belə ki, 2022-ci ilin birinci rübündə bu istiqamət üzrə yükdaşımaların həcmi ötən ilin müvafiq dövrü ilə müqayisədə 28 faiz artıb. İqtisadçı ekspertlər deyirlər ki, 2022-ci ildə Mərkəzi Asiya və Qafqaz vasitəsilə tranzit yüklərin həcmi 2021-ci illə müqayisədə altı dəfə artaraq 3,2 milyon tona çata bilər.

## Açıq dənizlərə çıxışı olmayan ölkə mühüm nəqliyyat şəbəkəsi yaradıb

Azərbaycan Orta dəhlizin reallaşması üçün çox mühüm addımlar atmaqdadır. Bunu Prezident İlham Əliyev bu il ərzində xarici ölkələrə səfərlərində və iştirak etdiyi beynəlxalq konfranslarda da bir daha bəyan edib.

Prezident oktyabrın 11-də Qırğız Respublikasına səfəri zamanı bu ölkənin rəhbəri Sadır Japarovun iştirakı ilə Azərbaycanla Qırğızıstan arasında Birinci Dövlətlərarası Şuranın geniş tərkibdə iclasında bildirmişdi ki, bu gün açıq dənizlərə çıxışı olmayan Azərbaycan artıq mühüm nəqliyyat şəbəkəsi yaradıb. Azərbaycandan həmçinin çox böyük potensiala malik "Şimal-Cənub" dəhlizi də keçir: "Azərbaycanın müəyyən qovşaq nöqtələrində bu iki dəhliz təbii ki, kəsişir, artıq həm "Cənub-Qərb", həm də "Şimal-Qərb" dəhlizlərinin potensialını genişləndirmək imkanı yaradır. Buna görə düşünürəm ki, həm hökumətlərarası komissiyalar, həm də ola bilsin, nəqliyyat sahəsi üzrə daha tez-tez məsləhətləşmələr çərçivəsində hansısa mərhələdə xüsusi işçi qrupunun yaradılmasına dəyər ki, bu, daim təmasda ola bilər. Çünki burada həyata keçirilən layihələr haqqında informasiya ilə bağlı, yenə də sinxronlaşdırma ilə bağlı məsələlər çox vacibdir. Çünki sizin regionda infrastruktur layihələri hazır olan zaman biz nəqliyyat potensialımızı genişləndirməyə hazır olmalıyıq ki, investisiyalar vaxtında və necə deyərlər, daha səmərəli olsun".

Oktyabrın 13-də Astanada səfərdə olan Prezident İlham Əliyev Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevlə görüşündə də bu barədə fikirlərini səsləndirib. Dövlət başçısı vurğulayıb ki, Azərbaycan təkcə öz regionunda deyil, həm də daha geniş coğrafi miqyasda çox böyük rol oynayır. Bu gün gündəlikdə Orta dəhlizin inkişafı məsələsi durur: "Orta dəhlizin inkişafı ilə bağlı məsələlər zamanın hökmüdür. Yaxşı ki, həm Qazaxıstan, həm Azərbaycan buna hazır idi, çünki bizim ölkələrdə çox müasir nəqliyyat infrastrukturu yaradılıb ki, bu, çox böyük həcmdə yükləri artıq bu gün daşımağa imkan verir. Lakin düşünürəm ki, gələcək infrastruktur planlarımızın əlaqələndirilməsi zamanı biz Trans-Xəzər marşrutunun buraxılış qabiliyyətinin genişləndirilməsi üzrə bundan sonrakı işləri sinxronlaşdıra bilərik".

Həmin gün Astanada Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin (AQEM) 6-cı Zirvə Toplantısının plenar iclasında çıxış edən İlham Əliyev həmçinin qeyd edib ki, Azərbaycan tərəfindən həyata keçirilən genişmiqyaslı nəqliyyat infrastrukturu layihələri ölkəmizi ən mühüm beynəlxalq nəqliyyat və logistika mərkəzlərindən birinə çevirib. 2022-ci ilin ilk doqquz ayı ərzində Azərbaycan ərazisindən keçən tranzit təxminən 65 faiz artıb. Azərbaycan "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizlərinin inkişafına mühüm töhfələr verir. Azərbaycan Orta dəhlizin önəmli hissəsini təşkil edəcək Zəngəzur dəhlizinin yaradılmasını fəal şəkildə təşviq edir".

## Zəngəzur dəhlizi Azərbaycanı beynəlxalq nəqliyyat-logistika mərkəzinə çevirəcək

Oktyabrın 20-də, Zəngilanın işğaldan azad edilməsinin ikinci ilində Azərbaycana səfər edən və İlham Əliyevlə birgə Zəngilan Hava Limanının açılışını edən Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycanın Orta dəhlizin inkişafına verdiyi töhfələri dəyərləndirib.

Qardaş ölkənin lideri vurğulayıb ki, Naxçıvanı Azərbaycanın qərb rayonları ilə birləşdirəcək Zəngəzur dəhlizi ilə bağlı bəzi dairələrdəki qorxu və narahatlıq reallıqdan uzaqdır. Yəni Qarabağla bağlı atılan bütün addımlardan sonra belə bir qorxuya ehtiyac yoxdur. Azərbaycan əmin addımlarla yoluna davam edir. Bu yol bölgənin sülh, əmin-amanlıq və sabitliyinə töhfə verəcəyi kimi, Xəzərdən keçməklə "Şərq-Qərb", Orta dəhliz marşrutları üzərində yerləşən bütün ölkələr üçün ticarət və sərmayə imkanları təqdim edəcək.

Zəngilan Beynəlxalq Hava Limanı Qarabağın mühüm nəqliyyat qovşağına çevrilməsini şərtləndirən əsas obyektlərdəndir. Həmçinin bu hava limanı Zəngəzur dəhlizinin hava nəqliyyatı infrastrukturu ilə gücləndirilməsi baxımından strateji əhəmiyyət kəsb edir. Görülən işlərin sürəti bu ərazinin beynəlxalq nəqliyyat-logistika mərkəzinə çevriləcəyi günü yaxınlaşdırmaqdadır.

Zəngilan Beynəlxalq Hava Limanı işğaldan azad olunan ərazilərdə Füzulidəki hava limanından sonra istifadəyə verilən beynəlxalq statuslu ikinci aeroportdur. Üçüncü hava limanı isə Laçın rayonunun ərazisində inşa olunur.

Prezident İlham Əliyevin oktyabrın 24-də Gürcüstana işgüzar səfəri çərçivəsində isə bu ölkənin Baş naziri İrakli Qaribaşvili ilə görüşdə, keçirilən birgə mətbuat konfransında da bu məsələ gündəmdə oldu. Baş nazir Azərbaycan Prezidentinin Cənubi Qafqazda əməkdaşlıq formatının yaradılması barədə Praqada irəli sürdüyü təşəbbüsü dəstəklədiyini bildirdi.

İlham Əliyev qeyd edib ki, dünyada Xəzər üzərindən Azərbaycan, Gürcüstan və qonşu ölkələrdən keçən nəqliyyat yollarına böyük ehtiyac var. Yeni nəqliyyat yolları həm geosiyasi vəziyyətlə bağlı, həm də bütövlükdə yol boyunca yerləşən bütün ölkələrin maraqlarına cavab verir. Ona görə Bakı-Tbilisi-Qars dəmir yolunun ötürmə qabiliyyətinin 5 milyon tona çatdırılması, eyni zamanda Gürcüstan limanlarından istifadə edərək Orta Asiyadan və bütövlükdə Asiyadan Qərb istiqamətinə və əks istiqamətə ötürülən yüklərin həcminin artırılması artıq yeni reallıq yaradır. Hər iki ölkə buna hazır olmalıdır. Azərbaycan artıq Bakı Beynəlxalq Dəniz Ticarət Limanının ötürmə qabiliyyətini 15 milyon tondan 25 milyon tona çatdırmaq istəyir. Ona görə Gürcüstanla Azərbaycan arasında nəqliyyat sahəsində sıx koordinasiya aparılmalıdır. Çünki birgə layihələr eyni vaxtda tamamlanmalıdır. Tranzit ölkə olmaq üçün mütləq qonşularla yaxşı münasibətlərin olmalıdır: "Bizim isə Gürcüstanla dostluq, qardaşlıq, tərəfdaşlıq münasibətlərimiz bu imkanları yaradır. Hazırda enerji resurslarına bütövlükdə dünyada və Avropada böyük tələbat olduğu üçün Gürcüstanla Azərbaycan da bu məsələdə bir cəbhədən hərəkət edərək, bir nöqtəyə vuraraq öz milli maraqlarını təmin edəcək. Baxın, görün, iki qardaş ölkə arasındakı əlaqələr bölgə üçün, Avropa üçün və dünya üçün nə qədər əhəmiyyətlidir".

Bu gün dünyanın aparıcı dövlətləri və təşkilatları Azərbaycanı Cənubi Qafqazın təhlükəsizlik zəmanəti adlandırır, ölkəmizin Xəzər dənizi regionunda əvəzolunmaz tərəfdaş kimi böyük dəyərə malik olduğunu bəyan edirlər. Azərbaycanın təşəbbüsü və liderliyi ilə həyata keçirilən bir çox nəhəng layihə regionun, Avrasiya məkanının enerji və nəqliyyat xəritəsini dəyişdirib, bölgənin və daha geniş coğrafiyanın enerji təhlükəsizliyinin təmin edilməsində nəqliyyat-kommunikasiya, logistika infrastruktrunun inkişafına mühüm təsir göstərib.

Bütün bunlar bir daha göstərir ki, Azərbaycan nəqliyyat-logistika ölkəsinə çevrilməkdədir. Ölkəmizin beynəlxalq nüfuzu meqa layihələrlə ölçülür. Burada əsas əhəmiyyət kəsb edən məsələ Zəngəzur dəhlizinin açılmasıdır. Orta dəhlizin əhəmiyyəti həm Zəngəzur, həm də Şərqi Zəngəzur-Naxçıvan-İran dəhlizlərinin açılması ilə daha da artacaq.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# 28 oktyabr — ZƏFƏR gündəliyi — 2020-ci il

Humanitar atəşkəs rejiminə riayət etməyən Ermənistan silahlı qüvvələrinin bölmələri oktyabrın 27-si gün ərzində və 28-nə keçən gecə cəbhənin müxtəlif istiqamətlərində Azərbaycan Ordusu bölmələrinin yerləşdiyi mövqeləri və cəbhəboyu zonaya yaxın yaşayış məntəqələrimizi müxtəlif silahlardan atəşə tutur.

Döyüş əməliyyatları əsasən cəbhənin Ağdərə, Xocavənd, Füzuli, Zəngilan və Qubadlı istiqamətlərində davam edir. Düşmənin hücum cəhdlərinin qarşısı qətiyyətlə alınır, o, itki verərək geri çəkilir.

Ermənistandan toplanan hərbi vəzifəlilərin Azərbaycanın işğal olunmuş ərazilərinə göndərilməsi prosesi davam edir. İşğalçı dövlətdə döyüşlərə cəlb etmək məqsədilə 2000 nəfərdən ibarət heyətin toplanması barədə tapşırığın verilməsinə baxmayaraq, cəmi 300 nəfəri toplamaq mümkün olur. Hətta bir çox hərbi müqavilələr və polis əməkdaşları cəbhəyə getməkdən imtina edirlər.

❖ ❖ ❖

Ermənistan silahlı qüvvələrinin bölmələri gecə və səhər müxtəlif vaxtlarda Ermənistan-Azərbaycan dövlət sərhədində yerləşən yaşayış məntəqələrimizi və bölmələrimizin mövqelərini atıcı silahlardan atəşə tuturlar.

Həmçinin səhər saat 07:30, günorta 14:40 radələrində Ermənistan silahlı qüvvələri Tərtər, Bərdə və Goranboy rayonlarının ərazisini atəşə tuturlar.

❖ ❖ ❖




Prezident İlham Əliyev özünün rəsmi tviter səhifəsində paylaşım edir: Paylaşımda deyilir:

"Erməni silahlı qüvvələrinin raketlərlə hücumu nəticəsində Bərdədə həlak olanlara Allahdan rəhmət diləyir, ailələrinə başsağlığı verir, yaralıların şəfa tapmasını diləyirəm. Bərdə sakinlərinin qisası yerdə qalmayacaq və döyüş meydanında işğalçılara layiqli cavab veriləcək".

❖ ❖ ❖

Ermənistan ordusu Qubadlı istiqamətində gedən döyüşlər zamanı silahını, texnikasını qoyub qaçır. Azərbaycan Müdafiə Nazirliyi düşmənin atıb qaçdığı hərbi texnika və silah-sursatların fotosunu və videogörüntüsünü yayır.

❖ ❖ ❖




"Müzəffər Azərbaycan Ordusu Zəngilanın Birinci Ağalı, İkinci Ağalı, Üçüncü Ağalı, Zərnəli, Füzulinin Mandılı, Cəbrayılın Qazanzəmi, Xanağabulaq, Çullu, Quşçular, Qaraağac, Qubadlının Qiyaslı, Əbilcə, Qılıcan kəndlərini işğaldan azad etmişdir.

Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!"

Bu barədə Prezident İlham Əliyev özünün rəsmi tviter səhifəsində bildirir.

❖ ❖ ❖

Düşmən dezinformasiya yaymaqla törətdiyi hərbi cinayətlərdən diqqəti yayındırmağa çalışır.

Müdafiə Nazirliyinin yaydığı məlumatda qeyd edilir ki, Ermənistan mətbuatının Azərbaycan Ordusu tərəfindən Xankəndidə yerləşən doğum evinin guya atəşə tutulması barədə xəbəri məqsədyönlü şəkildə yayılan dezinformasiyadır.

Bu məlumatla düşmən bir qədər əvvəl Bərdə şəhərində törətdiyi çoxsaylı insan tələfatı ilə nəticələnən hərbi cinayətindən diqqəti yayındırmağa çalışır.

❖ ❖ ❖

Ermənistan silahlı qüvvələrinin bölmələri Tərtər rayonunun ərazisini BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemlərdən və toplardan atəşə tuturlar.

❖ ❖ ❖



Birinci vitse-prezident Mehriban Əliyeva Ermənistan silahlı qüvvələrinin Bərdəyə növbəti dəfə raket hücumu ilə əlaqədar rəsmi instaqram səhifəsində paylaşım edir.

Paylaşımda deyilir:

"Bu gün Ermənistan silahlı qüvvələri dinc Azərbaycan şəhəri Bərdəyə növbəti dəfə qəddarcasına, qeyri-insani zərbə endiriblər. Zərbə nəticəsində 21 nəfər həlak olub, 70 nəfər ciddi xəsarət alıb. Təəssüf ki, qurbanların sayı artmaqda davam edir.

Bu cür vəhşicəsinə hücumlar onu göstərir ki, ermənilərin qəddarlığının həddi yoxdur. Üstəlik, Azərbaycanın dinc mülki əhalisinə hər bir hücumu Ermənistanın ağlını itirmiş hərbi-siyasi rəhbərliyinin total mənəvi tənəzzülünə dəlalət edir.

Bu hücumların məqsədi aydındır - Azərbaycan xalqını qorxutmaq və bizim ordumuzu Ermənistan ərazisinə cavab zərbəsi endirməyə məcbur etmək. Bu, üçüncü tərəfləri münaqişəyə cəlb etməyə imkan verərdi. Lakin düşmənimiz bilməlidir ki, heç nə bizi haqq yolundan dönməyə məcbur edə bilməz. Hər hücum bizi daha da güclü edir və işğal olunmuş ərazilərimizin erməni təcavüzkarlardan azad edilməsi kimi müqəddəs missiyanı başa çatdırmağın zəruri olmasına inandırır. Həlak olanların ailələrinə dərin hüznlə başsağlığı verir və yaralananların tezliklə sağalmalarını arzulayıram.

Azərbaycan Ordusu düşməni döyüş meydanında sıxışdırdığı bu günlərdə biz həmrəyliyimizi qoruyub saxlamalı və Prezidentimizin ətrafında möhkəm birləşməliyik.

Yalnız möhkəm yumruq kimi birləşməklə ədalətin zəfər çalmasına nail olacağıq, ona görə ki, Qarabağ Azərbaycandır!

Uca Tanrı Vətənimizi və Azərbaycan xalqını qorusun!"

❖ ❖ ❖

Prezident İlham Əliyev Rusiyanın "İnterfaks" Agentliyinə müsahibə verir. Azərbaycan Ordusunun uğurlu əməliyyatlarından danışan dövlət başçısı deyir ki, ordumuz döyüş meydanında özünün üstünlüyünü sübut etdi. İşğal edilmiş ərazilərin xeyli hissəsi bu bir ay ərzində azad olundu. Bu göstərir ki, Azərbaycan Ordusunun dünyada ən yaxşı döyüş qabiliyyətinə malik ordulardan biri hesab edilməsi əbəs deyildi.

Prezident bir daha əməliyyatların dayandırılması məsələsinə toxunur: "Biz Ermənistan tərəfindən onların yüksək rəhbərliyinin şəxsində öhdəlik almalıyıq ki, qoşunları işğal olunmuş ərazilərdən çıxaracaqlar. Hələlik biz bunu eşitməmişik. Erməni rəhbərliyindən bu cür öhdəlik alınandan və bu, ATƏT-in Minsk qrupunun həmsədrləri tərəfindən təsdiq ediləndən dərhal sonra biz hərbi əməliyyatları dayandırmağa hazırıq".

❖ ❖ ❖

Gün ərzində mülki infrastrukturu və dinc əhalini atəşə tutan düşmənin canlı qüvvəsi bölmələrimizin sərrast atəşi ilə məhv edilir. Bölmələrimizin dəqiq atəş zərbələrinə tab gətirə bilməyən düşmən döyüş meydanından qaçır.

Humanitar atəşkəs rejimini kobudcasına pozaraq şəhər və rayonlarımıza atəş açan düşmənin qüvvə və vasitələrini Azərbaycan Ordusunun bölmələri darmadağın edirlər.

***R.BAXŞƏLİYEV,***
***"Azərbaycan"***



# İŞİMİZ, GÜZƏRANIMIZ





## Azərbaycanla Gürcüstanın münasibətləri bədniyyətli qonşular üçün nümunədir

**Bəzən sezmədiyimiz, fərqində olmadığımız kiçik detallar dünyada baş verən böyük dəyişikliklərin təməlini qoyur. Gürcüstan bu gün də Heydər Əliyevi məhəbbət və böyük sevgi ilə xatırlayır. Bu ölkənin siyasi liderləri həmişə Ulu Öndərin Gürcüstan üçün dəyərli siyasi xadim olmasını qürür hissi ilə deyirlər.**

Bu baxımdan Azərbaycan Prezidentinin Gürcüstana işgüzar səfəri çərçivəsində dost ölkənin Baş naziri İrakli Qaribaşvilinin mətbuata açıqladığı bəyanatda Heydər Əliyevi xatırlaması təsadüfi deyil: "Mən Sizin atanızdan, ölkənizin Ümummilli Liderindən sitat gətirmək istəyirəm. Onun xatirəsinə bizim dərin ehtiramımız var. O, vaxtilə Gürcüstanda, Tbilisidə olanda demişdi: Azərbaycan və gürcü xalqları xoşbəxtdirlər ki, onlar qonşu xalqlardır. Bizim əcdadlarımız həmin təmasları yaradıb və bu gün bizim vəzifəmiz odur ki, həmin əməkdaşlığı irəli aparaq və gələcək nəsillərə ötürək".

Bu görüşdə diqqəti çəkən həm də gürcülərin Azərbaycanla qonşuluğa, tarixi dostluğa xüsusi önəm vermələri oldu. Azərbaycan Prezidenti Gürcüstan torpağında rəğbətlə qarşılandı, Ulu Öndər məhəbbətlə yad edildi. İki dövlət arasında mehriban qonşuluq münasibətlərinin və strateji tərəfdaşlığın dərinləşməsində, sıx iqtisadi münasibətlərin inkişafında Prezident İlham Əliyevin xüsusi rolu etiraf edildi.

Artıq məktəbli də anlayır ki, dünya sakit deyil. Sərt qütbləşmələrin davam etdiyi, müharibələrin bütün bəşəriyyət üçün təhlükəli həddə çatdığı bir məqamda Azərbaycanın sülh və iqtisadi təşəbbüslərlə irəli çıxması xüsusi əhəmiyyət daşıyır.

Gürcülər Baş nazirlərinin dili ilə etiraf edirlər ki, "…dünyada baş verən hadisələr yalnız sülh və sabitlik yolu ilə həll olunmalıdır. Bu həm bizim regionumuz, həm də xalqlarımız üçün vacibdir". İ.Qaribaşvili hesab edir ki, regiondakı mehriban qonşuluq əlaqələri heç bir əməkdaşlıq formatına zidd deyil və onları daha da gücləndirmək mümkündür.

İki qonşu ölkənin diqqət yetirdiyi ən vacib məsələ iqtisadi əlaqələrin daha da dərinləşməsidir. Gürcüstan Azərbaycanla strateji tərəfdaş kimi iqtisadi əlaqələrin daha geniş spektrinin qurulmasında maraqlıdır. Baş nazir öz mövqeyini belə dəqiqləşdirir: "Biz artıq reallaşdırdığımız mühüm layihələri nəzərdən keçirdik. Bunlar tarixi layihələrdir - Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri, Bakı-Tbilisi-Qars dəmir yolu və Orta dəhliz. Bizim həyata keçirdiyimiz layihələr bundan sonra da irəliyə aparılacaq və onları daha da sürətləndirmək əzmindəyik".

Azərbaycan və Gürcüstan liderlərinin qarşılıqlı səfərləri çox olur. Onlar eyni zamanda beynəlxalq təşkilatların keçirdiyi tədbirlər çərçivəsində də tez-tez görüşürlər. İlham Əliyev iki dövlətin qarşılıqlı əlaqələrini belə qiymətləndirir: "Bu münasibətlər çox dərin ənənələr üzərində qurulub. Əsrlərboyu xalqlarımız dostluq, qardaşlıq, mehriban qonşuluq şəraitində yaşamışlar. Dövlətlərarası əlaqələr də bu möhkəm təməl üzərində qurulubdur".

Bu gün Azərbaycan-Gürcüstan əlaqələri artıq strateji tərəfdaşlıqdan müttəfiqlik səviyyəsinə keçmişdir. İlham Əliyev bir çox sahə üzrə fəal əməkdaşlığımızı qeyd edərək bildirdi ki, bir çox önəmli layihə təkcə ölkələrimiz üçün deyil, bölgə üçün, bütövlükdə Avropa üçün xüsusi əhəmiyyət daşıyır. Dövlətimizin başçısı bu görüşdə regionda gedən proseslər, o cümlədən təhlükəsizliklə, İkinci Qarabağ müharibəsindən sonra yaranmış vəziyyətlə və Ermənistanla Azərbaycan arasında sülh danışıqlarının gedişatı ilə bağlı Gürcüstanın Baş nazirini məlumatlandırmış və bütün Qafqaz üçün taleyüklü təklif vermişdir: "Biz beş əsas prinsipdən ibarət təkliflərimizi Ermənistan tərəfinə təqdim etdik. Ümid edirəm ki, Ermənistan tərəfi də siyasi iradə göstərərək beynəlxalq birlik tərəfindən tanınan bu əsas təməl prinsiplər əsasında Azərbaycanla sülh müqaviləsini imzalayacaqdır. Əgər belə olarsa, Cənubi Qafqaza sülh gələcək və eyni zamanda əməkdaşlıq üçün imkanlar yaranacaqdır. Bu gün eyni zamanda söhbət əsnasında Gürcüstan-Azərbaycan-Ermənistan məsləhətləşmələrinə başlanması haqqında fikir mübadiləsi apardıq. Əgər Ermənistan tərəfi buna hazırdırsa, biz buna hazırıq".

Qeyd etdiyimiz kimi, bu görüşdə də daha çox iqtisadi məsələlərə yer ayrılmışdır. Vurğulanmışdır ki, iki ölkə arasında ticarət dövriyyəsinin dəyəri artaraq bu ilin 9 ayında 1 milyard dollara yaxınlaşmışdır. Azərbaycanın Gürcüstana qoyduğu sərmayələrin həcmi isə 3 milyard dolları keçmişdir. İlham Əliyev: "Bu sərmayə qarşılıqlı faydalı sərmayədir, çünki hər iki tərəfin maraqlarına cavab verir".

Ermənistan iki ildir sülh müqaviləsini imzalamamaq üçün min hoqqadan çıxır, imkanı olsaydı, Arktikada da özünə tərəfdaş axtarardı. Azərbaycan isə sülhün və qarşılıqlı fayda verən iqtisadi layihələrin axtarışındadır. Dövlətimizin başçısı deyir: "Avropa Komissiyası ilə Azərbaycan arasında imzalanmış enerji sahəsində strateji tərəfdaşlığa dair memorandumda göstərilir ki, növbəti 5 ildə Azərbaycan Avropaya qaz ixracını iki dəfə artıracaq. Yəni bizim niyyətimiz bundan ibarətdir, imkanlarımız da buna çatır. Beləliklə, biz planlaşdırırıq ki, 2027-ci ildə Azərbaycanın təkcə Avropaya qaz ixracatı 20 milyard kubmetrə çatacaq". Gələn il həmçinin Bakı-Tbilisi-Ceyhan neft kəməri xətti ilə ixrac artırılacaq, üstəlik, hazırda istismar edilməyən Bakı-Supsa neft kəməri də istifadəyə verilməlidir.

Bundan əlavə, cari il iki ölkə arasında yükdaşımaların həcmi 75 faiz artmışdır. Azərbaycan Bakı-Tbilisi-Qars dəmir yolunun ötürmə qabiliyyətini 5 milyon tona çatdırmaq və bunun üçün sərmayələr yatırmaq niyyətindədir. Artıq Xəzər üzərindən Azərbaycan, Gürcüstan və qonşu ölkələrdən keçən nəqliyyat yollarına ehtiyac ildən-ilə artmaqdadır. Ona görə Bakı-Tbilisi-Qars dəmir yolunun ötürmə qabiliyyətinin 5 milyon, Bakı Beynəlxalq Dəniz Ticarət Limanının ötürmə qabiliyyətinin isə 15 milyon tondan 25 milyon tona çatdırılması ölkəmizin marağındadır. Azərbaycan Prezidenti belə hesab edir ki, Gürcüstanla Azərbaycan arasında nəqliyyat sahəsində daha sıx əlaqələrin qurulması xüsusi əhəmiyyət kəsb edir: "Tranzit ölkə olmaq üçün mütləq qonşularla yaxşı münasibətlərin olmalıdır. Çünki qonşularla bu münasibətlər olmadan heç bir ölkə etibarlı tranzit ölkəyə çevrilə bilməz. Bizim isə Gürcüstanla dostluq, qardaşlıq, tərəfdaşlıq münasibətlərimiz bu imkanları yaradır".

*Bahadur İMANQULİYEV,*
*"Azərbaycan"*

## Türkiyənin qabaqcıl texnologiya şirkətinin nümayəndəsi ilə görüş keçirilib

**Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) İdarə Heyətinin sədri Orxan Məmmədov Türkiyənin "HAVELSAN" şirkətinin regional meneceri Erhan Kanat ilə görüşüb.**



KOBİA-dan verilən xəbərə görə, görüşdə qardaş ölkənin qabaqcıl texnologiya şirkətlərindən olan "HAVELSAN"ın proqram təminatı, texnoloji həllər sahəsində Azərbaycan startapları ilə mümkün əməkdaşlığına dair fikir mübadiləsi aparılıb.

## DSMF-nin sədri Dünya Sosial Təminat Forumunun panel sessiyasında çıxış edib

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Sosial Müdafiə Fondunun İdarə Heyətinin sədri Himalay Məmişov Beynəlxalq Sosial Təminat Assosiasiyası (BSTA) tərəfindən Mərakeş Krallığında keçirilən Dünya Sosial Təminat Forumunun panel sessiyasında çıxış edib.**

"Sosial təminat idarəçiliyində insan resurslarının idarə edilməsi üzrə BSTA Təlimatları" mövzusuna həsr edilmiş sessiyada H.Məmişov sosial təminat idarəçiliyinin gücləndirilməsi perspektivlərindən danışıb. O həmçinin sosial təminat qurumlarının hazırda malik olduqları və insan resurslarının gələcəyə hədəflənən səmərəli idarəetmə potensialının inkişaf etdirilməsindən bəhs edib.

DSMF-nin insan resursları siyasətinin müasir dövrün tələblərinə uyğun inkişaf etdirilməsi istiqamətində atılan addımlar, peşəkar kadr hazırlığının, iş prosesinin müasir texnologiyalar, işgüzar mühitin tam demokratik və bərabərlik prinsipləri əsasında qurulması ilə bağlı fondda aparılan ardıcıl və genişmiqyaslı işlər geniş auditoriyanın diqqətinə çatdırılıb.

H.Məmişov fond tərəfindən bu istiqamətdə icra olunan islahatlar barədə xarici ölkə təmsilçilərinin suallarını da cavablandırıb.

## SOCAR-ın nümayəndə heyəti "Türkmənistanın nefti və qazı - 2022" beynəlxalq sərgi və konfransında iştirak edir

**SOCAR-ın prezidenti Rövşən Nəcəfin rəhbərlik etdiyi nümayəndə heyəti 27-ci "Türkmənistanın nefti və qazı - 2022" beynəlxalq sərgi və konfransında iştirak etmək məqsədilə Türkmənistanın paytaxtı Aşqabada səfər edib.**

"Türkmənistanın nefti və qazı - 2022" beynəlxalq sərgi və konfransının "Enerjinin gələcəyi - yeni çağırışlar və imkanlar" mövzusunda keçirilən plenar sessiyasında çıxış edən Rövşən Nəcəf Azərbaycan ilə Türkmənistan arasında müxtəlif sahələr üzrə əməkdaşlığın inkişafına zəmin yaradan mövcud müqavilə-hüquq bazasından danışıb, "Dostluq" yatağının karbohidrogen resurslarının birgə kəşfiyyatı, işlənilməsi və mənimsənilməsi haqqında Anlaşma Memorandumunun ölkələrimiz üçün neft-qaz sektorunda faydalı əməkdaşlıq baxımından yeni imkanlar açdığını vurğulayıb.

SOCAR prezidenti "Cənub qaz dəhlizi"nin Azərbaycanla yanaşı, region ölkələri üçün də böyük əhəmiyyət kəsb etdiyini bildirib.

## Çili ilə sosial müdafiə və məşğulluq sahəsində gələcək əməkdaşlığa dair müzakirə aparılıb

**Mərakeşdə keçirilən Dünya Sosial Təminat Forumu çərçivəsində DOST Agentliyinin İdarə Heyətinin sədri Fərid Məmmədovla Çili Respublikasının nümayəndə heyətinin görüşü olub.**

Görüşdə Çilinin "Mutual de Seguridad" təşkilatının icraçı direktoru Felipe Bunster Eçeniqe və əməyin təhlükəsizliyi və sağlamlıq üzrə meneceri Hektor Xaramiyo Qutieres ilə sosial sahədə əməkdaşlıq, təcrübə mübadiləsi ilə bağlı müzakirələr aparılıb. F.Məmmədov DOST konsepsiyası, göstərilən xidmətlər, vətəndaş məmnunluğuna hesablanan fəaliyyətlər, innovativ yeniliklər, həmçinin agentliyin beynəlxalq uğurları barədə məlumat verib.

DOST konsepsiyasının hazırlanmasında Çili təcrübəsindən də istifadə edildiyi nəzərə alınaraq, Çili ilə sosial müdafiə və məşğulluq sahəsində "bir pəncərə" modelində inzibatçılıq və idarəetmə üzrə əməkdaşlığın qurulması və inkişaf etdirilməsinə dair razılığa gəlinib.

## Bu il Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin qurumları 11 beynəlxalq mükafatla təltif olunub

### Dünya Sosial Təminat Forumu: "Azərbaycanda son illər aparılan sosial islahatlar beynəlxalq səviyyədə qabaqcıl dünya təcrübələri kimi qəbul edilir"

**Mərakeşdə keçirilən Dünya Sosial Təminat Forumu Azərbaycanda son illər aparılan, innovativ həllərin geniş tətbiqinə, müasir yanaşmalara əsaslanan sosial islahatların beynəlxalq qurumların maraq dairəsində olduğunu və bu islahatların artıq beynəlxalq səviyyədə qabaqcıl dünya təcrübələri kimi qəbul edildiyini təsdiqlədi.**




Forumda Beynəlxalq Sosial Təminat Assosiasiyası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin iki qurumunu - Dövlət Sosial Müdafiə Fondunu "Yaxşı idarəçilik" və "Xidmət keyfiyyəti" meyarları üzrə və DOST Agentliyini "Xidmət keyfiyyəti" meyarı üzrə olmaqla ümumilikdə üç Mükəmməllik Sertifikatı ilə mükafatlandırdı.

Həmçinin DSMF və DOST Agentliyi ölkəmizin BSTA-nın Tanınma Proqramından keçən və proqramı uğurla tamamlayan ilk qurumları oldu.

Bu nailiyyətlər 2022-ci il ərzində nazirliyin ardıcıl əldə etdiyi beynəlxalq uğurların davamıdır. Təkcə bu il nazirliyin qurumları 11 beynəlxalq mükafata layiq görülüb, o cümlədən:

**Dövlət Sosial Müdafiə Fondu:**

"2022-ci ilin Beynəlxalq Dövlət Qurumu" (Böyük Britaniya) ali mükafatı

Beynəlxalq Sosial Təminat Assosiasiyasının mükafatı və 2 Mükəmməllik Sertifikatı

Beynəlxalq Pensiya və Sosial Fondlar Assosiasiyasının mükafatı

**DOST Agentliyi:**

Avropa Sosial Şəbəkəsinin "Avropa Sosial Xidmətlər Mükafatı"

Beynəlxalq Sosial Təminat Assosiasiyasının 3 mükafatı və Mükəmməllik Sertifikatı

Beynəlxalq Pensiya və Sosial Fondlar Assosiasiyasının mükafatı ilə təltif ediliblər.

Bu mükafatların təqdim edilməsinin əsasında ölkəmizdə aparılan sosial islahatlar, effektiv idarəçilik, xidmətlərin keyfiyyətinin beynəlxalq tələblərə uyğunlaşdırılması, vətəndaş məmnunluğuna yönələn proaktiv xidmətlər, çevik və şəffaf rəqəmsal mexanizmlərin tətbiqi dayanır.

Həmçinin nazirliyin qurumlarına 2021-2022-ci illərdə 12 beynəlxalq ISO sertifikatı da təqdim edilib.

Beynəlxalq təşkilatlar bu kimi qabaqcıl təcrübələrin digər ölkələrdə də genişlənməsində maraqlıdır. Forum zamanı BSTA tərəfindən Azərbaycanın DOST təcrübəsinin təşkilatın platforması üzərindən digər ölkələrdə tətbiqi üçün qurumun beynəlxalq səviyyəli vebinar, seminar və konfranslara cəlb ediləcəyi vurğulanıb.

## Ölkəmizin əmək bazarında tələb və təklif

### İkincinin birincini qarşılaması üçün geniş imkanlar var

**Əhalinin sosial müdafiəsini gücləndirmək məqsədilə indiyəcən ölkədə dərin sosial islahatlar icra olunub və həmin islahatlar bu gün də davam edir. Məqsəd sadə və aydındır: ehtiyacı olan hər bir vətəndaş dövlətin sosial siyasətindən yararlanmalıdır. Bəri başdan etiraf edək ki, islahatların davamlı olması sayəsində cəmiyyətin hər bir üzvü həmin siyasətin verdiyi imkanlardan faydalanmaq imkanı qazanıb.**



Günü bu gün də pensiya, təqaüd və sosial müavinətlər fürsət yarandıqca artırılır və əhalinin məşğulluğunun təmin edilməsi istiqamətində müvafiq tədbirlər görülür. Söz düşmüşkən qeyd edək ki, ölkəmizdə əməkqabiliyyətli əhalinin məşğulluğunun təmin olunmasına xüsusi diqqət verilir. Bu da əsasən onunla bağlıdır ki, işləyən və təsərrüfatı olan vətəndaş dolanışığını təmin edə bilir, dövlət yardımına, dəstəyinə ehtiyacı qalmır. Üstəlik, vergi ödəyir və gələcəkdə özünə yüksək pensiya təmin etmiş olur.

Bu sahə üzrə rəqəmlərə nəzər salaq: Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Dövlət Məşğulluq Agentliyi tərəfindən cari ilin yanvar-sentyabr aylarında 77,7 min şəxs aktiv məşğulluq tədbirləri ilə əhatə olunub. Onlardan 26,2 min nəfər münasib işlə təmin edilib, 12,8 min vətəndaş kiçik bizneslərini qurmaq üçün özünüməşğulluq proqramına, 3,4 min işsiz şəxs peşə hazırlığına cəlb olunub. Üstəlik, peşə hazırlığına cəlb olunanların işəgötürənlərlə əməkdaşlıq çərçivəsində müxtəlif peşə sahələri üzrə hazırlıq kursları təşkil edilib. Bununla yanaşı, hesabat dövründə 35,3 min şəxsə peşəyönümlü xidmətlər göstərilib.

Şəhid ailələri və müharibə veteranlarının məşğulluğu da diqqət mərkəzindədir. Dövlət Məşğulluq Agentliyi ilə Kiçik və Orta Biznesin İnkişafı Agentliyi həssas kateqoriyadan olan insanların məşğulluğunu təmin etmək məqsədilə birgə layihə icra edirlər. Layihə çərçivəsində 200 nəfərdən 144-ü məşğulluq aktivləri ilə artıq təmin olunub, qalan 56 vətəndaş da tezliklə öz kiçik təsərrüfatlarını yaradacaq. Kənd əhalisi isə bu layihə çərçivəsində məhsuldar simmental cins iribaşlı damazlıq heyvanlar, sağım aparatları, qaşov, yemqıran və xüsusi yemlərlə təmin olunur.

Məlumdur ki, zəfərlə yekunlaşan 44 günlük savaşdan sonra doğma yurdlarından didərgin düşmüş vətəndaşlarımızın Böyük qayıdışına start verilib. Odur ki, gələcəkdə Qarabağ və Şərqi Zəngəzurda məskunlaşacaq soydaşlarımızın yaşayışları ilə yanaşı, məşğulluqlarının da təmin edilməsi gündəmdədir. Hazırda həmin istiqamətdə müvafiq dövlət qurumları tərəfindən müəyyən araşdırmalar aparılır.

Bununla əlaqədar iqtisadçıların və mütəxəssislərin də fikirləri var. İqtisad elmləri namizədi İsmayıl İsmayılov deyir ki, regionlarda iqtisadi sahələrin keyfiyyətli kadr təminatının reallaşdırılması hazırda Azərbaycanda əsas sosial-iqtisadi problemlərdən biridir: "Həmin problemin əsas səbəbi kimi əmək bazarında təklif edilən işçi qüvvəsi ilə işəgötürənlərin tələbləri arasında kəmiyyət və keyfiyyət uyğunsuzluqları, eləcə də zəruri istiqamətlər üzrə ixtisaslı mütəxəssis hazırlığındakı problemləri göstərmək olar. Bu problemlərin həm indi, həm də Böyük qayıdışdan sonra məcburi köçkünlərin məşğulluğunun təmin edilməsinə ciddi maneəyə çevrilməməsi üçün indidən zəruri addımlar atılmalıdır. İlk növbədə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları üzrə iqtisadi fəal əhalinin hazırkı peşə-ixtisas səviyyəsi üzrə məlumatlar dəqiqləşdirilməlidir. İkincisi, qeyd edilən iqtisadi rayonlarda inkişafı nəzərdə tutulan prioritet sahələr üzrə iqtisadi fəaliyyətin həyata keçirilməsi üçün lazım olacaq işçi qüvvəsinin sayı, tərkibi, ixtisas səviyyəsi haqqında tam və etibarlı proqnozlar hazırlanmalıdır. Üçüncüsü isə, Böyük qayıdışa qədər Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına qayıdacaq məcburi köçkünlərin zəruri peşə-ixtisas biliklərinə yiyələnməsi təmin olunmalıdır".

İqtisadçı ekspert Füruzə Cəfərovanın da fikirləri maraqlıdır. Onun sözlərinə görə, işğaldan azad olunmuş ərazilərimizdə yeni məskunlaşma modelinə əsasən, yeni iş yerlərinin açılması ilə əhalinin məşğulluğu da təmin ediləcək. Eyni zamanda sosial obyektlərin inşası həmin ərazilərdə müxtəlif xidmətlərin həyata keçirilməsinə münbit şərait yaradacaq, məskunlaşma prosesində iş yerlərinin yaradılması, sosial xidmətlərin göstərilməsi məsələnin kompleks şəkildə həllinə yol açacaq". F.Cəfərova haqlı olaraq vurğulayır ki, Qarabağın və Şərqi Zəngəzurun işğaldan azad edilmiş əraziləri əkinçilik və heyvandarlıq üçün olduqca əlverişli yerlərdir. Təsadüfi deyil ki, işğaldan əvvəl yerli əhalinin əsas məşğulluğu da məhz kənd təsərrüfatı sahəsi olub: "Yeni məskunlaşma modelində kəndlərin birləşdirilməsi torpaq sahələrinə qənaət və onlardan səmərəli istifadə deməkdir. Bu bölgələrdə kənd əhalisinin şəxsi torpaq mülkiyyətindən, istər əkinçilikdən, istərsə də heyvandarlıqdan əldə etdiyi məhsullar daxili bazarda ərzaq və qida bolluğunun yaranmasına, təbii ərzaq məhsullarının qıtlığının aradan qalxmasına, qida təhlükəsizliyinə, sağlam qidalanmağa şərait və imkan yaradacaq, üstəlik, ixrac edilməklə ölkəyə valyuta axınını artıracaq".

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

# Sərkərdəmizin və xalqımızın etimadını doğrultduq



Bakı Şəhər İcra Hakimiyyətinin nəşr etdiyi "ZƏFƏR MEMUARLARI. Döyüşçülər sərkərdə və müharibə haqqında" kitabından istifadə olunub

**KƏRİMOV KƏNAN ELTON oğlu**
**Daxili Qoşunların "Gürzə" xüsusi təyinatlı dəstəsinin baş çavuşu**



*1990-cı il iyulun 22-də Şamaxı rayonunda anadan olub. Cəmo Cəbrayılbəyli adına Şamaxı şəhər 5 nömrəli orta məktəbin məzunudur.*

*2008-2010-cu illərdə Daxili Qoşunların Bakıda yerləşən "N" saylı xüsusi təyinatlı ("Şahinlər") hərbi hissəsində həqiqi hərbi xidmət keçib. 2010-cu ildə öz istəyi ilə ordu sıralarında müddətdən artıq hərbi qulluqçu kimi çalışmaq üçün müraciət edib və təyinatla Daxili Qoşunların "N" saylı xüsusi təyinatlı ("Gürzə") dəstəsinə göndərilib. Hazırda həmin hərbi hissədə xidmətini davam etdirir.*

*Vətən müharibəsinin iştirakçısıdır.*

*3-cü dərəcəli "Rəşadət" ordeni, "Füzulinin azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.*

*Ailəlidir, 1 övladı var.*



*Azərbaycan xalqı Vətən müharibəsində zəfər çalan ordusu ilə fəxr edir, qürur duyur. Bu şanlı qələbənin müəllifi Silahlı Qüvvələrin Ali Baş Komandanı, "dəmir yumruq"la düşmənə öz yerini göstərən Prezident İlham Əliyev və onun yaratdığı müzəffər Azərbaycan Ordusudur.*

*Ali Baş Komandanımız hər zaman söyləyirdi ki, müstəqillik dövründə böyüyüb tərbiyə almış gənclər bizim üçün qürur mənbəyidir. Vətən müharibəsindən sonra isə Ali Baş Komandan bəyan etdi ki, bu savaşı müstəqillik dövründə böyümüş gənclər qazandı.*

Mən də müstəqillik dövrünün yetirməsiyəm. Bizlər hər yerdə - məktəbdə, yarış meydanlarında, hərbi xidmətdə əlimizi köksümüzün üstə qoyub himnimizi ürəkdən oxuyaraq böyüdük. Başımız üzərində dalğalanan üçrəngli bayrağımız qürur mənbəyimiz oldu.

İllər ötdü, zaman keçdi və müstəqillik dövrünün uşaqları gənclərə çevrilib Vətən müharibəsi başlayanda Ali Baş Komandanın cağırışı ilə silaha sarıldılar. Bir əlimizdə silah, bir əlimizdə bayraq, dilimizdə "Vətən naminə!" şüarı ilə düşmən üzərinə yeriyib şanlı zəfər qazandıq.



Vətən müharibəsi 30 ilə yaxın erməni işğalı altında qalan torpaqlarımızın azad olunması ilə nəticələndi. Bu müharibədə Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının hərbi qulluqçuları və xüsusi təyinatlıları döyüş tapşırıqlarını uğurla yerinə yetirərək şücaət nümunələri göstərdilər. Xoşbəxtəm ki, onların sırasında mən də var idim.

## Xüsusi təyinatlı olmaq arzusu

Uşaqlıqdan hərbiyə olan marağım sonda məni Vətənin on minlərlə qəhrəmanından birinə çevirdi. Amma bu, baş verməyə də bilərdi. Məhz inadkarlığımla, qarşıma qoyduğum məqsədlə buna nail ola bildim. Orta məktəbin 8-ci sinfindən sənədlərimi Cəmşid Naxçıvanski adına Hərbi Liseyə təqdim etsəm də, qəbul oluna bilmədim. Lakin dedim ki, bu, son deyil və mübarizəmi davam etdirdim. 2008-ci ildə hərbi xidmətə yollananda qarşıma məqsəd qoydum ki, əynimə geyindiyim hərbi mundiri çıxarmayacağam.

Daxili Qoşunlara məxsus hərbi hissədə nümunəvi əsgər oldum və "Şahinlər" adlandırılan xüsusi təyinatlı dəstənin üzvü seçildim. Amma bu da asan olmadı. Çünki Xüsusi Təyinatlı Qüvvələrə düşmək çətin idi. Buraya idmançılar seçildiyi üçün qarşımda maneə yaranmışdı. Mən isə yalnız rayonda həvəskar kimi fərdi qaydada güləşlə məşğul olmuşdum. Yəni hansısa idman növü üzrə sənədim, diplomum yox idi.

Buna baxmayaraq, təkid etdim ki, məni də Xüsusi Təyinatlı Qüvvələrə seçsinlər. Qarşıma şərt qoyuldu: güləş üzrə respublika çempionu olmuş 5 əsgərlə mübarizə aparmalı, hamısına qalib gələcəyim təqdirdə seçilməli idim. "N" saylı hərbi hissənin idman zalında yarış keçirildi və mən inamlı qələbə qazandım. Bununla da Daxili Qoşunların Xüsusi Təyinatlı Qüvvələrinin bir parçasına çevrildim.

Uşaqlıqda həm də atıcılıqla məşğul olmuşdum. Atam ovçu olduğu üçün mənə hədəfi nişan almağı, dəqiq atmağı öyrədirdi. Bunun da nəticəsi hərbi xidmətdə özünü göstərdi. Hərbi hissədə və digər məkanlarda atıcılıq üzrə keçirilən yarışlarda birinci, ikinci yerləri qazanırdım.

2010-cu ildə hərbi xidmətimi başa vurmağa yaxın komandanlığa müraciət edib müddətdən artıq hərbi qulluqçu (MAXE) kimi xidmət etmək istədiyimi bildirdim və müraciətim müsbət cavablandırıldı. Beləliklə, öz istəyimlə Daxili Qoşunların Xüsusi Təyinatlı Qüvvələrində xidmətə başladım.

"Gürzə" adlandırılan xüsusi təyinatlı tabora göndərildim. İllər ötdükcə daha da təkmilləşirdim. Yeni silahlardan istifadə etdikcə, yeni döyüş taktikalarını öyrəndikcə, təcrübəm daha da artırdı. Həm də hiss edirdim ki, Azərbaycan Ordusu getdikcə çox güclənir. Öz-özümə deyirdim ki, belə güclü ordusu olan dövlət nədən işğal altında olan torpaqlarımızı düşməndən təmizləyə bilməsin? Axı biz çox güclüyük və istənilən döyüşə hazırıq. Çox inanırdım ki, müharibəyə başlasaq, mütləq qalib gələcəyik.

2016-cı ildə Aprel döyüşləri baş verərkən bir daha əmin oldum ki, düşmən bizdən qat-qat zəifdir. Bəlkə də, atəşkəs olmasaydı, Azərbaycan Ordusu Qarabağı tam azad edə bilərdi. Amma müəyyən səbəblərdən döyüşlər dayandı. Düzdür, müharibə itkisiz olmur və Aprel döyüşlərində şəhid versək də, qələbə qazandıq. Düşmən Azərbaycan Ordusunun gücünü, qüdrətini gördü. Hələ həmin vaxt ordumuzun arsenalında olan silahların yalnız bir qismindən istifadə edilmişdi.

Biz hər an Ali Baş Komandan İlham Əliyevin hücum əmrini gözləyirdik. Bilirdik ki, Prezidentimiz Qarabağı düşmən tapdağında qoymayacaq. Hərbi büdcəmizin hər il artırılması, yeni-yeni zirehli texnika, silah-sursatların alınması, hərbi sənayemizin getdikcə daha da inkişaf etdirilməsi düşmənə mesaj idi ki, Azərbaycan tezliklə öz torpaqlarını geri qaytarmaq üçün haqq savaşına qalxacaq. Bu, qaçılmaz idi və 2020-ci ildə bu həsrətimizə son qoyuldu.

## Qisas günü

2020-ci ilin iyul ayında baş verən Tovuz döyüşlərində generalımız Polad Həşimovun və digər yüksəkrütbəli zabitlərimizin şəhid olması bütün Azərbaycan xalqının düşmənə olan nifrət hissini daha da artırdı. Polad Həşimovun dəfni zamanı yaşanan izdiham bir daha göstərdi ki, Azərbaycan xalqı hər zaman ayaqdadır və bu itki ilə barışmayacaq.

Sentyabrın 27-də düşmənin cəbhə xəttindəki təxribatları Vətən müharibəsinin başlanmasına rəvac verdi. Ali Baş Komandan İlham Əliyev illərlə gözlədiyimiz əks-həmlə əməliyyatları ilə bağlı əmr verdi və düşməndən qisas almağın zamanı yetişdi.

Həyəcan siqnalı ilə toplanıb yola çıxdıq. Bərdədə təşkil olunan toplanış məntəqəsində tapşırıqlar aldıq və ilk olaraq, bəzi cəbhəyanı rayonlarımızda ictimai asayişin, təhlükəsizliyin qorunmasını təmin etdik. Amma savaş meydanında gedən döyüşlərdən kənarda qalmağımız məni çox narahat edirdi: biz də düşmənlə savaş meydanında hünər göstərmək istəyirdik, axı illərlə buna hazırlaşmışdıq.



Nəhayət, bizə də şans yarandı və tapşırıqla Cəbrayıl istiqamətinə göndərildik. Biz (Daxili Qoşunların "Gürzə" xüsusi təyinatlı dəstəsi) Müdafiə Nazirliyinin Xüsusi Təyinatlı Qüvvələri ilə birlikdə əməliyyatlara başladıq. Mən yarımqrup komandiri təyin edildim.

Oktyabrın 17-də Füzuli istiqamətində gedən döyüşlərdə iştirak etdik. "Karyer" deyilən ərazidə ağır döyüşlər getdi. Düşmənin müdafiə istehkamları çox güclü idi. Amma Xüsusi Təyinatlı Qüvvələr manevrlər etməklə düşmənin arxasına keçib ağır zərbələr endirirdi.

Dəstəmizin qarşısına ermənilərin "Beton post" deyilən möhkəmləndirilmiş mövqelərini almaq tapşırığı qoyuldu. Müxtəlif cinahlardan düşmən üzərinə hücum etmək üçün dəstəmiz əməliyyat planına uyğun olaraq ayrı-ayrı qruplara bölünmüşdü. Bizim qrup kapitan Taleh Rüstəmlinin rəhbərliyi altında sağ cinahdan düşmən mövqeyi istiqamətində hərəkətə başladı. İrəlilədiyimiz yollar olduqca təhlükəli idi. Belə ki ərazi açıqlıq olduğundan və ermənilərin müşahidə postları yüksəklikdə yerləşdiyindən mənfur düşmən hərəkət etdiyimiz yolları uzaq məsafədən minaatan atəşinə məruz qoyurdu. Lakin bütün bunlara baxmayaraq, biz düşmən üzərinə yeriyərək postu aldıq. Qorxuya düşən və vuruşmağa cəsarəti çatmayan ermənilər xeyli sayda silah-sursatı, eləcə də artilleriya qurğularını postda atıb qaçmışdılar.

Bu uğurlu əməliyyatdan sonra aldığımız növbəti tapşırığa uyğun digər qrupumuzla birləşib yenidən hücumu davam etdirmək üçün hərəkətə başladıq. Artıq axşam düşmüşdü. Qruplar arasında xeyli məsafə vardı. Hərəkətdə olduğumuz vaxt qəfildən erməni silahlılarının pusqusuna düşdük. Şiddətli atışma başladı. Bir müddət vuruşduqdan sonra düşmən gülləsinə tuş gələn cəsur silahdaşımız, kiçik gizir Anar Məmmədov qəhrəmancasına şəhid oldu.

Bundan sonra tapşırıq Hadrut istiqaməti oldu. Artıq ordumuz Hadrutu düşməndən təmizləmişdi və irəliyə doğru hərəkət edirdi. Amma Hadrutda xeyli sayda erməni hərbçisi gizlənmişdi. Bizə tapşırıq verildi ki, burada arama-tarama, təmizləmə əməliyyatları keçirib onların hamısını zərərsizləşdirək. Bir çox əməliyyatlar keçirdik.

## Ordumuzun şücaətli və cəsarətli döyüşündən sonra məğlub olub yalvaran erməni əsgəri

Bu əməliyyatlardan sonra bizə başqa tapşırıq verildi. Komandanlıqdan məlumat gəldi ki, artıq Xüsusi Təyinatlı Qüvvələrimiz Şuşa yaxınlığında döyüşlərə başlayıblar və həmin istiqamətə əlavə dəstək qüvvələri göndərilməlidir. Çünki düşmən həm Xankəndi, həm də Laçın istiqamətindən Şuşaya gedən yolları ağır artilleriya ilə atəşə tuturdu.

Onu da deyim ki, bu savaşda hər şey əvvəlcədən mükəmməl hazırlanmışdı: biz öndə döyüşürdük, arxamızda təxliyə qrupları hərəkət edirdi. Yaralıları dərhal çıxarıb müayinə edirdilər. Həmçinin təminat yüksək səviyyədə idi. Arxadakı bölmələrimiz bizi ac-susuz qalmağa qoymurdu. Bütün bunlar Azərbaycan Ordusunun maddi-texniki bazasının, döyüşlərə hazırlığının göstəricisi idi. Hər kəs bir daha şahid oldu ki, Ali Baş Komandan İlham Əliyev, həqiqətən də, dünyanın ən güclü ordularından birini yaradıb.

Savaşdıqca, düşmən üzərində inamlı qələbələr qazandıqca, daha da həvəslənirdik. Üstəlik, Ali Baş Komandanın qələbə müjdələri bizi daha da ruhlandırırdı. Bəziləri elə bilirdi ki, Aprel döyüşləri kimi, bu savaş da bir neçə gündən sonra dayandırılacaq və geri qayıdacağıq. Amma Hadrutdan sonra aldığımız tapşırıq hamıda bir əminlik yaratdı ki, bu, sondur, Qarabağı düşməndən təmizləmək zamanıdır. Ona görə də növbəti tapşırığı alanda böyük sevinc hissi keçirdik.

Dağlarla, dərələrlə Daşaltıya qədər piyada yol getdik. Biz Laçın dəhlizinə doğru hərəkət etməli və yüksəkliyə qalxaraq həm dəhlizə, həm də Xankəndidən Şuşaya gələn yola nəzarəti ələ keçirməli idik.

Noyabrın 5-də tapşırığı yerinə yetirdik. Mən yarımqrupumla Xankəndi istiqamətindən gələn yolda düşmənə pusqu qurmaq tapşırığı aldım. Dərə yatağı ilə hərəkət edib mövqeləndik. Gözlədik ki, hava qaralsın və düşmənin hərəkət istiqamətlərini müəyyənləşdirək. Bizdən 30 metr yuxarıdan asfalt yol keçirdi. Ermənilər hərdən maşınları saxlayıb bir-biri ilə söhbət edirdilər. Ağıllarına da gəlmirdi ki, biz burada olarıq. Hərdən meşəyə tərəf yoxlama atəşi açırdılar ki, biz cavab versək, yerimizi müəyyənləşdirib məhv etsinlər. Amma heç bir cavab atəşi açmırdıq. Çünki bizə tapşırıq verilmişdi ki, cavab atəşi açmayın, lazım olan anda əmr veriləcək və düşmən üzərinə hücuma keçiləcək.



Səhəri gün tapşırıq gəldi ki, iriçaplı silahlarla düşmən postlarına atəş açılsın. Mən həm avtomat, həm də qumbaraatandan yüksək səviyyədə istifadə edə bilirdim, özümlə iki silah götürmüşdüm, köməkçim isə qumbaraatanın mərmilərini daşıyırdı.

Noyabrın 6-da hər tərəfdən Şuşaya doğru irəliləmək əmri verildi. Bizə isə deyildi ki, dərə yatağından yuxarı qalxıb Xankəndi istiqamətindən gələn bütün texnikanı məhv edək. Eyni anda hər tərəfdən hərəkətə başladıq. Yola qalxıb düşmənin texnikalarına atəş açdıq. Xankəndidən gələn tankları vurduq və düşmənə pusqu qurduq. Sonra tapşırıq gəldi ki, 300 metr aşağıda olan yanacaqdoldurma məntəqəsi tərəfə irəliləyib ərazini nəzarətə götürməliyik.

"Gürzə", mayor Zaur Rəhimovun başçılıq etdiyi "KA" taboru və digər Xüsusi Təyinatlı Qüvvələrdən bir neçə nəfər şəxsi heyətlə əməliyyata başladıq. Yanacaqdoldurma məntəqəsinə çatdıqda düşmən bizə tanklardan atəş açmağa başladı. Piyadalar zirehli texnikaların yanı ilə üzərimizə hərəkət edirdilər. Qumbaraatanla 5 tankı vuraraq zərərsizləşdirdik. Bəzisi tam məhv edildi, bəzisi isə yana-yana geriyə doğru hərəkət etməyə başladı.

Bir müddət sonra tank əleyhinə mərmilərimiz bitdi. Düşmənin də canlı qüvvəsi, demək olar ki, məhv edilmişdi. Biz tankla... belə deyək, əlbəyaxa qalmışdıq. Avtomatla zirehli texnikaya nə etmək olar ki?

Bir müddət sonra düşmən tanklarla öz yaralılarını daşıyıb Xankəndiyə tərəf çəkildi. Biz də öz yaralılarımızı təxliyə edib qala divarı tərəfə apardıq. Düşməndən qalmış qənimətlər arasından qumbaraatan mərmiləri tapdım.

Bir müddət keçmiş gördük ki, erməni hərbçilərini təxliyə edən tanklar geri qayıdır. Düz qala divarına qədər yaxınlaşmışdılar. Bilirdilər ki, yaralılarımızı həmin yerə toplamışıq. Yerə uzanıb nişan alaraq bir tankı vurdum. Ekipaj tərəfdən vurdum ki, zərbə dalğası içəridəkiləri məhv etsin. Tank tüstüləyə-tüstüləyə geri qayıtmağa başladı. Bu anda ayağa qalxıb ikinci mərmini atdım və texnika yoldan çıxıb dərəyə tərəf yuvarlandı.

Sonra yenə də həmin ərazidə mövqelənib pusqu qurduq. Noyabrın 7-si idi. Təminatımız tamam tükənmişdi, gətirmək isə qeyri-mümkün idi. Həmin anda aşağı istiqamətdən səslər gəlməyə başladı. Elə bildik ki, bizimkilər təminat gətirirlər. Amma düşmən qüvvələri imiş. Yüzlərlə canlı qüvvə Şuşa istiqamətindən Xankəndiyə doğru hərəkət edirdi. İçərilərində polis geyimində olanlar da var idi. Bəlli oldu ki, bunlar canlarını qurtarıb qaçmaq istəyənlərdir.

Ayağa qalxıb bunlardan parol soruşdum. Ermənicə nəsə deyəndə bildik ki, düşməndir və atışma başladı. Şiddətli döyüş gedirdi. Tank əleyhinə qumbaraatan əlimdə idi. Nişan alıb dəstənin düz ortasına zərbə endirdim. Sonra daha 2 mərmi atdım və biz orada düşmənin onlarla canlı qüvvəsini məhv etdik. Xeyli sayda qüvvəsi isə yaralı halda qaçıb dərə yatağına girdi.

Bir az keçdi və hava qaraldı. Yaralı ermənilər dərə yatağında ağlaşmağa başlamışdılar. Əsgərin biri telefonla hətta bizim eşidə biləcəyimiz çox bərk səslə qışqırırdı. Erməni dilini bilən kəşfiyyatçımız dedi ki, bu erməni əsgəri Xankəndidə yaşayan atasına yalvarır ki, gəlib onu xilas etsin.



Həmin anda Ali Baş Komandan İlham Əliyevin ermənilərə ünvanladığı mesajların biri yadıma düşdü. Prezident erməni valideynlərinə deyirdi ki: "Əgər oğullarınızın ölməyini istəmirsinizsə, Qarabağda xidmət etmələrinə razı olmayın. Əgər erməni əsgəri ölmək istəmirsə, rədd olsun Azərbaycan torpağından". İndi həmin an yaşanırdı. Ölmək istəməyən erməni əsgəri yardım dilənirdi. O, atasına yox, əslində, Azərbaycan Ordusuna yalvarırdı.

Səhər açılanda komandir dedi ki, dərə yatağı istiqamətinə düşüb vəziyyəti yoxlayaq. Ola bilsin ki, yaralılardan sağ qalanı olsun. Yoxlama zamanı düşmənin xeyli qüvvəsinin məhv olduğunu gördük. Xocalıda qətlə yetirilən körpələrin, ana-bacılarımızın qisasını beləcə alırdıq.

## Ali Baş Komandan başımızı uca etdi

Noyabrın 9-dək orada qaldıq. Xəbər gəldi ki, atəşkəs elan olunub. Amma ermənilər Xankəndi istiqamətindən bizi atəşə tuturdu. Ona görə də mövqeyimizi tərk etmirdik. Noyabrın 10-da məlumat gəldi ki, Ermənistan təslim olub və bəyanat imzalanıb. Bundan sonra mövqeyimizdən qalxıb yola çıxdıq.

Çox sevincli idik, bir-birimizə sarılıb sevincdən gözyaşları tökürdük. Axı böyük zəfərdə bizim də payımız vardı! Bizim də adımız Vətən müharibəsində qəhrəmanlıq göstərən igidlər sırasında idi. Mən bu savaşda düşmənin 8 tankını, şəxsi heyətlə dolu avtomobilini məhv etdim. Bu mənim üçün böyük qürurdur, fəxrdir.

Bu gün də "Gürzə" xüsusi təyinatlı dəstəsində xidmətimi davam etdirirəm. İndi hərbi mundiri alnıaçıq, qürurla daşıyıram. Çünki Müzəffər Ali Baş Komandan İlham Əliyevin qüdrətli ordusunun xüsusi təyinatlı baş çavuşuyam və bizə alnımızdakı ləkənin təmizlənməsi üçün meydan verən baş sərkərdəmizə minnətdaram.

Ali Baş Komandan İlham Əliyevin "Dəmir yumruq" əməliyyatı düşmənə elə bir zərbə vurdu ki, hələ uzun illər bunu unutmayacaq. Elə əməliyyatlar həyata keçirildi ki, bu gün də dönə-dönə müzakirə olunur.

Vaxt keçəcək, bu döyüşlər haqqında kitablar, əsərlər yazılacaq. Doğrudan da, Azərbaycan Ordusu çox böyük peşəkarlıq, məharət, şücaət, fədakarlıq tələb edən döyüşlər apararaq şərəfli missiyanın öhdəsindən uğurla gələ bildi.

Ali Baş Komandanın müzəffər ordusunun böyük qələbəsi Azərbaycan tarixinin döyüş meydanında yazılan şanlı səhifəsi olub dövlətimizi, xalqımızı böyütdü, dünyaya daha yaxından tanıtdı.

*Aradan aylar, illər, onilliklər, əsrlər keçəcək, lakin baş sərkərdəmizin komandanlığı ilə əldə etdiyimiz bu qələbə həmişə xalqımızın yoluna işıq salacaq, keçmişimizin qürur mənbəyi kimi daha möhtəşəm gələcəyimizi qurmağa kömək edəcək.*



# "Kommunal xidmətlərə (elektrik təchizatı şəbəkəsinə) qoşulma" indikatoru üzrə yol xəritəsinin təqdimatı olub



**Dünya Bankı Qrupunun "Əlverişli Biznes Mühiti" layihəsinin "Kommunal xidmətlərə (elektrik təchizatı şəbəkəsinə - ETŞ) qoşulma" indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin həyata keçirilməsinə dair 2022-2023-cü illər üzrə yol xəritəsinin təqdimatı keçirilib.**

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzində təşkil edilmiş tədbirdə çıxış edən Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiyanın "Elektrik təchizatı şəbəkələrinə qoşulma" işçi qrupunun rəhbəri, Azərbaycan Respublikası energetika nazirinin müavini Samir Vəliyev ETŞ-yə qoşulma sahəsində görülən tədbirlər barədə məlumat verib. Qeyd olunub ki, işçi qrupunun üzvlərinin iştirakı ilə hazırlanmış və layihəyə cəlb edilmiş məsləhətçi şirkət tərəfindən təkmilləşdirilmiş diaqnostika matrisası əsasında tərtib edilən "Kommunal xidmətlərə (ETŞ-yə) qoşulma" indikatoru ilə bağlı müvafiq yol xəritəsi Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiya tərəfindən təsdiq edilib.

Tədbirdə məlumat verilib ki, yol xəritəsində kommunal xidmət qaydalarının keyfiyyəti, kommunal xidmət göstəriciləri və xidmətlərin şəffaflığı, kommunal sahədə xidmətlərin həyata keçirilməsinin səmərəliliyi, maarifləndirmə və təbliğat işlərinin aparılması istiqamətlərində 4 altindikator, 5 komponent və 10 altkomponent üzrə 21 tədbir öz əksini tapıb. Bu tədbirlər əsasən elektrik təchizatı şəbəkələrinə qoşulma üzrə normativ-hüquqi baza, kommunal xidmətlərin təhlükəsizliyi və təchizatın keyfiyyəti, tariflər və digər istiqamətləri əhatə edir.

Komissiyanın katibliyinin rəhbəri, Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının sektor müdiri Vüsal Şıxəliyev Dünya Bankının "Əlverişli Biznes Mühiti" layihəsi barədə çıxış edib, təsdiq edilmiş yol xəritəsinin əhəmiyyəti və müvafiq sahəyə verəcəyi töhfələr barədə fikirlərini bölüşüb. "Azərişıq" ASC-nin sədr müavini Ramil Yusifov sənəddə nəzərdə tutulan tədbirlərin elektrik təchizatı şəbəkəsinə qoşulma sahəsində xidmətin keyfiyyətinə müsbət təsirini vurğulayıb.

Energetika Nazirliyinin şöbə müdiri Rauf Qurbanov yol xəritəsində Energetika Nazirliyi və nazirliyin tabeliyində Enerji Məsələlərini Tənzimləmə Agentliyi üzrə nəzərdə tutulan tədbirlər və qarşıda duran vəzifələr barədə çıxış edib.

"Azərişıq" ASC sədrinin müşaviri Fərruh Heybətov yol xəritəsində qurumun məsul olduğu tədbirlərin icrası ilə bağlı görüləcək işləri təqdimat şəklində diqqətə çatdırıb. Bu işlərin elektrik təchizatı şəbəkələrinə qoşulmanın düzgün və səmərəli təşkilinə təsiri qeyd edilib, kommunal xidmətlərə qoşulma üzrə dövlət xidmətlərinin elektronlaşdırılması və onlayn müraciət imkanlarının artırılması barədə məlumat verilib.

Sonra iclas iştirakçıları tərəfindən yeni yol xəritəsi üzrə qarşıda duran vəzifələrə dair müzakirələr aparılıb, səsləndirilmiş rəy və təkliflərin tədbirlərin icrası zamanı nəzərə alınması məqsədəuyğun hesab edilib.

İclasda Energetika Nazirliyi, nazirliyin tabeliyində Enerji Məsələlərini Tənzimləmə Agentliyi, nazirlik yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyi, İqtisadiyyat Nazirliyi, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində olan "İnnovasiyalar Mərkəzi" MMC, "Azərişıq" ASC və "Azərenerji" ASC-nin, eləcə də digər dövlət və özəl şirkətlərin nümayəndələri, media təmsilçiləri iştirak ediblər.

# Paytaxtda hava əsasən yağmursuz keçəcək

**Azərbaycanda oktyabrın 28-nə gözlənilən hava proqnozu açıqlanıb.**

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Arabir güclənən şimal-qərb küləyi əsəcək, gündüz şimal-şərq küləyi ilə əvəzlənəcək. Havanın temperaturu gecə 13-15°, gündüz 17-19° isti olacaq. Atmosfer təzyiqi 767 millimetr civə sütunu olacaq. Nisbi rütubət 60-70 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarının bəzi yerlərində arabir yağış yağacağı, duman olacağı proqnozlaşdırılır. Qərb küləyi əsəcək, gündüz arabir güclənəcək. Havanın temperaturunun gecə 9-14°, gündüz 18-22° isti, dağlarda gecə 0-4°, gündüz 5-8° isti olacağı bildirilir.

Naxçıvan şəhərində, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarında hava əsasən yağmursuz keçəcək. Bəzi yerlərdə duman olacaq. Qərb küləyi əsəcək. Havanın temperaturu gecə 4-9°, gündüz 15-20° isti olacaq.

Xankəndi şəhərində, Şuşa, Xocalı, Xocavənd, Ağdam, Daşkəsən, Gədəbəy rayonlarının bəzi yerlərində arabir yağış yağacağı, duman olacağı gözlənilir. Qərb küləyi əsəcək, gündüz arabir güclənəcək. Havanın temperaturunun gecə 2-7°, gündüz 9-14° isti olacağı proqnozlaşdırılır.

Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilan rayonlarının bəzi yerlərində arabir yağış yağacağı, duman olacağı gözlənilir. Qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 2-7°, gündüz 9-14° isti olacağı bildirilir.

Gəncə şəhərində, Qazax, Goranboy, Tərtər, Füzuli rayonlarında əsasən gecə və axşam bəzi yerlərdə arabir yağış yağacağı, duman olacağı gözlənilir. Qərb küləyi əsəcək, gündüz arabir güclənəcək. Havanın temperaturunun gecə 7-12°, gündüz 15-20° isti olacağı ehtimal edilir.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarının bəzi yerlərində arabir yağış yağacağı, duman olacağı proqnozlaşdırılır. Qərb küləyi əsəcək, gündüz arabir güclənəcək. Havanın temperaturunun gecə 5-10°, gündüz 14-19° isti, dağlarda gecə 2-6°, gündüz 7-12° isti olacağı ehtimalı var.

Mingəçevir və Şirvan şəhərlərində, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Hacıqabul, Salyan, Neftçala rayonlarında əsasən gecə və axşam bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Bəzi yerlərdə duman olacaq. Qərb küləyi əsəcək. Havanın temperaturu gecə 9-14°, gündüz 18-22° isti olacaq.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarının bəzi yerlərində arabir yağış yağacağı gözlənilir. Dağlarda duman olacaq. Şimal-şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 12-14°, gündüz 18-21° isti, dağlarda gecə 8-10°, gündüz 14-17° isti olacaq.











# OXUCULARIN NƏZƏRİNƏ!

*"Azərbaycan" qəzetinə 2022-ci il üçün abunə yazılışı kampaniyası davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, **(012) 539-59-33** nömrəli telefona zəng vura bilərsiniz.*



UNHCR
United Nations High Commissioner for Refugees
Haut Commissariat des Nations Unies pour les réfugiés

## Layihə təkliflərinin verilməsi üçün müraciət: No. RFP/AZE/012/202

Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığının Azərbaycandakı Nümayəndəliyi

➢ **AZƏRBAYCANDA QAÇQINLAR VƏ SIĞINACAQ AXTARAN ŞƏXSLƏR ÜÇÜN TƏHSİL DƏSTƏYİ**

fəaliyyətinin həyata keçirilməsi üçün layihə təkliflərini qəbul edir.

- Tender ölkədaxilidir.
- Ətraflı məlumatı **http://www.azerweb.com** və ya **https://azerbaijan.un.org/en/204458-rfp-education-support-refugees-and-asylum-seekers-azerbaijan** internet səhifəsindən əldə edə bilərsiniz.
- Sualların qəbulu üçün son tarix 30 oktyabr 2022-ci il, Bakı vaxtı ilə saat 23:59-dur.
- **17 noyabr 2022-ci il, Bakı vaxtı ilə saat 23:59-a** qədər daxil olan təkliflər etibarlı sayılacaq.

UNHCR
United Nations High Commissioner for Refugees
Haut Commissariat des Nations Unies pour les réfugiés

## Request for Project Proposal: No. RFP/AZE/012/202

The Office of United Nations High Commissioner for Refugees in Baku, Azerbaijan invites to submit project proposals on:

➢ **PROVISION OF EDUCATION SUPPORT FOR REFUGEES AND ASYLUM SEEKERS IN AZERBAIJAN;**

- The tender is open at a country level.
- For details, please visit **http://www.azerweb.com** or **https://azerbaijan.un.org/en/204458-rfp-education-support-refugees-and-asylum-seekers-azerbaijan** website.
- The deadline for receipt of questions is 23:59 hrs. BAKU time on 30 October 2022.
- Offers should be submitted by **17 November 2022 at 23:59** hours Baku time.


# Britaniya müxalifətindən Rişi Sunaka ciddi etiraz

## Leyboristlər ölkədə növbədənkənar seçkilərin keçirilməsini tələb edirlər

**Böyük Britaniyanın yeni Baş naziri Rişi Sunak ilk olaraq hökumət başçısı kimi İcmalar Palatasında müxalifət qarşısında çıxış edib. İclas zamanı əsas narazılığa səbəb olan Suella Bravermanın daxili işlər naziri vəzifəsinə təyin edilməsidir.**



O, Liz Trassın baş nazir kimi qısa müddət ərzində işlədiyi dövrdə Daxili İşlər Nazirliyinə rəhbərlik edib, lakin şəxsi elektron poçtundan xidməti məqsədləri üçün istifadə etdiyinə görə istefaya göndərilib. Yeni hökumət başçısının dediyinə görə, Braverman səhvini etiraf edib və bu posta bərpa olunub.

Rişi Sunak iqtisadi siyasətlə bağlı fikirlərinə görə də tənqid atəşinə tutulub.

Kabinet dəyişikliyindən bir gün sonra Leyboristlər Partiyasının lideri Kir Starmer növbədənkənar parlament seçkilərinin keçirilməsini tələb edib. O, hiddətlə bildirib ki, Sunakın rəqiblərinin mübarizədən imtina etməsi səbəbindən hökumətin taleyini yalnız bir mühafizəkar komitəsi həll edib.

Starmerin dediyinə görə, hətta partiya yoldaşları da bilirlər ki, o, zəhmətkeş xalqı təmsil etmir. Məhz buna görə də o, bircə dəfə rəqabətli seçkilərdə iştirak edəndə keçmiş baş nazirə məğlub olub. Leyboristlərin liderinin yeni hökumət başçısına sualı isə belə olub: "Bəs niyə Sunak bunu praktikada öyrənmək istəmir, niyə zəhmətkeşlərə öz fikirlərini bildirməyə imkan vermir, niyə ümumi seçki təyin etmir?"

Rişi Sunak isə cavabında Mühafizəkarlar Partiyasının 2019-cu ildə keçirilmiş seçkilərdə qalib gələrək aldığı mandatdan istifadə etdiyini bildirib: "Bizim mandatımız manifestimizə əsaslanır. Biz həmin manifestin sayəsində seçilmişik. Nəzərinizə çatdırım ki, seçkilər artıq başa çatıb və biz qalib gəlmişik, onlar isə uduzublar".

Baş nazir bir daha xatırladıb ki, qarşıda səhiyyə sistemini gücləndirmək, məktəbləri yaxşılaşdırmaq, küçələri daha təhlükəsiz etmək, sərhədlərə nəzarəti artırmaq və həyat səviyyəsini yaxşılaşdırmaq və digər hədəflər var. Bu, onun və hökumətin britaniyalılar üçün həyata keçirdiyi mandatdır.

Rişi Sunak mühafizəkarların lideri və hökumət başçısı kimi missiyasını Nazirlər Kabinetinin erkən dəyişməsinə səbəb olan qalmaqallardan sonra seçicilərin həm onun partiyasına, həm də dövlət təsisatlarına inamının bərpasında görür.

*Rizvan CƏFƏROV, "Azərbaycan"*


«AZƏRBAYCAN» qəzetinin reklam xidməti 539-49-20


**Ədliyyə Nazirliyi Penitensiar xidmətin Avtonəqliyyat təsərrüfatı tərəfindən Yavər Azər oğlu Həsənovun adına verilmiş 5261 nömrəli xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.**

## ALLAH RƏHMƏT ELƏSİN!

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi cəmiyyətin əməkdaşı İqbal Nağıyevə atası

**ELBƏYİ NAĞIYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Mərkəzi Neftçilər Xəstəxanasının kollektivi xəstəxananın keçmiş baş direktoru Leyla Seyidbəyovaya həyat yoldaşı

**OQTAY SADIX OĞLU SEYİDBƏYOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
*e-mail:*
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 539-63-82, 432-37-68
Humanitar siyasət şöbəsi - 538-56-60
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Gündəlik qəzet*

Tiraj 6508
Sifariş 3034
Qiyməti 40 qəpik